


## Lyuk Kofi: “Azərbaycanla Ermənistan arasında dayanıqlı sülhə ehtiyac var”

5

# “DƏMİR YUMRUĞ”un gücü bizi əzəli torpaqlarımızdan olan Kəlbəcərə qaytardı!



3

*30 ilə yaxın həsrətlə gözlədiyimiz, xəyalımızda canlandırdığımız erməni işğalında olan torpaqlarımıza qovuşmuşuq. Hər gün əzəli, doğma yurdumuza qayıtmaq arzumuz, istəyimiz reallığa çevrildi.*

Səs

№ 215 (6415) **25 noyabr** 2021-ci il. **Qiymәti 40 qәpik**

# Zəngəzurda toqquşan maraqlar



7

*Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Parisdə işgüzar səfərdə olarkən Fransanın "Fiqaro" qəzetinə verdiyi müsahibədə öz ölkəsinin maraqlarından çıxış edərək bir çox sualları iddialarından da yüksək cavablandırıb.*



9

**Fuat Oktay: “Qarabağla bağlı layihələr müzakirə olunur”**

*Burada İslam Əməkdaşlıq Təşkilatı (İƏT), xüsusilə İƏT-in İqtisadi və Ticarət Məsələləri üzrə Daimi Komitəsinə üzv ölkələr arasında ticarətin inkişaf etdirilməsi, sərmayələrə təkan verilməsi ilə əlaqədar maneələrin aradan qaldırılması, həm də yeni fürsətlərin yaradılması ...*

## Soçi görüşünə ümidlər böyükdür

*“Ermənistan baş naziri Nikol Paşinyanın danışıqlar masasına gətirilməsi Azərbaycan dövlətinin qətiyyətli və prinsipial siyasətinin nəticəsidir”.*



13

## Fransa burnunu hansı işlərə dürtməməlidir?



Rusiya sülhməramlı kontingentinin (RSK) müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki separatçı-quldur rejim ”nümayəndələrinin” Fransaya...



## Laçın dəhlizi hər an bağlana bilər - Soçi görüşündən gözləntilər nələrdir?

# DİQQƏT:



## Gələn il uşaqpulu veriləcək?

*“2022-ci ilin büdcə xərclərinin 46,4 faizi birbaşa sosial təminat məsələlərinə yönəldiləcək. Gələn il dövlət büdcəsində sosial...*

16

## Putin və Şarl Mişel Qarabağdakı vəziyyəti müzakirə ediblər



Rusiya Prezidenti Vladimir Putin və Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel Qarabağdakı vəziyyəti müzakirə ediblər. Kremlin mətbuat xidmətinin yaydığı məlumatda deyilir ki, telefon danışığında da tərəflər Belarusun Avropa İttifaqı ölkələri ilə sərhədlərindəki vəziyyət, Əfqanıstan və Liviya məsələləri də daxil olmaqla, bir sıra aktual beynəlxalq problemlər ətrafında müzakirələr aparıblar.

Vladimir Putin Azərbaycan, Ermənistan və Rusiya arasında 2020-ci il 9 noyabr və 2021-ci il 11 yanvar tarixli üçtərəfli razılaşmaların müddəalarının həyata keçirilməsi, o cümlədən dinc həyatın bərqərar edilməsi və Cənubi Qafqazda iqtisadi və nəqliyyat əlaqələrinin bərpası istiqamətində atılan addımlar barədə məlumat verib. ”Məhz bu məsələlərin Rusiya və Azərbaycan prezidentlərinin və Ermənistanın baş nazirinin noyabrın 26-da Soçidə keçiriləcək görüşündə müzakirəsi planlaşdırılır”, - deyə Kremlin mətbuat xidmətinin məlumatında bildirilir.



## Ermənistan minalanmış ərazilərin xəritəsini nəyə görə vermir?

10

Mina xəritələrinin verilməməsi məsələsi son müharibədən sonra ən aktual mövzulardan biridir. Burada ilk səbəb odur ki, Ermənistan bilir...



## Koronavirusun hamilələrə təsiri açıqlandı

16

***“Orqanizmlər çox müxtəlifdir. Ona görə də orqanizmdən asılı olaraq hər kəsdə xəstəliyin gedişatı eyni olmur.***

# "Rusiya şirkətləri Azərbaycana böyük maraq göstərirlər"



## Prezident İlham Əliyev Rusiya Federasiyasının Baş nazirinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 24-də Rusiya Federasiyasının Baş nazirinin müavini Aleksey Overçuku qəbul edib.

AZƏRTAC xəbər verir ki, söhbət zamanı ikitərəfli münasibətlərin, o cümlədən iqtisadi sahədə əməkdaşlığın inkişafından məmnunluq ifadə edildi, bu il ticarət dövriyyəsinin 7 faiz artdığı qeyd olundu. Rusiya şirkətlərinin Azərbaycana böyük maraq göstərdiyi bildirilərək, Prezident İlham Əliyevin bu işdə dəstəyinin önəmi vurğulandı. Bildirildi ki, görüş keçirildiyi vaxtda eyni zamanda Azərbaycan-Rusiya işgüzar dairələri arasında da danışıqlar davam edir.

Görüşdə Rusiya şirkətlərinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində fəaliyyəti, ticarət dövriyyəsinin artırılması, qarşılıqlı sərmayə qoyuluşu məsələləri geniş müzakirə olundu. Əminlik ifadə edildi ki, Azərbaycan-Rusiya münasibətləri müxtəlif sahələrdə bundan sonra da uğurla inkişaf edəcək.

Söhbət zamanı Rusiya-Azərbaycan-Ermənistan Baş nazirlərinin müavinlərinin sədrliyi ilə üçtərəfli komissiyanın fəaliyyəti və eləcə də gələcək planlar haqqında fikir mübadiləsi aparıldı. Dövlətimizin başçısı İlham Əliyev bu sahədə göstərdiyi səylərə görə Aleksey Overçuka təşəkkürünü bildirdi.

Görüşdə o da qeyd olundu ki, Azərbaycanla Ermənistan arasında nəqliyyat kommunikasiyalarının tezliklə açılması bölgədə sabitliyə və iqtisadi inkişafa öz töhfəsini verəcəkdir.

# "TRT World" telekanalı Fransa xüsusi xidmət orqanlarının İŞİD və PKK ilə gizli əlaqələrini ifşa edib




***Qaçqınlar və terrorizm hazırda müasir dünyanın qarşılaşdığı qlobal problemlər arasında ön sırada dayanır. Bu problemlərin təhlükəlilik dərəcəsi hətta planetimizin üz-üzə qaldığı qlobal iqlim dəyişikliyinin yaratdığı kütləvi aclıq və fəlakət riskləri ilə müqayisə oluna bilər. Təəssüflə qeyd etməliyik ki, son illər bəşəriyyəti təhdid edən PKK və İŞİD kimi qorxunc terror təşkilatlarının mövcudluğu və maliyyə qaynaqları bəzi Avropa ölkələrinə, o cümlədən Fransaya bağlıdır.***

AZƏRTAC xəbər verir ki, "TRT World" telekanalının təqdim etdiyi sənədli filmdə Fransa xüsusi xidmət orqanlarının İŞİD və PKK ilə gizli əlaqələri təkzibedilməz fakt və dəlillərlə ifşa olunur. "Zavod: Gizli Fransız əməliyyatı" adlı film yarım milyona yaxın sənəd üzərində iki il boyunca aparılan dərin araşdırmanın məhsuludur. Filmi izləyəndə məlum olur ki, Fransanın nəhəng "Lafarge" sement şirkəti Fransa kəşfiyyatının İŞİD və digər terror təşkilatlarını maliyyələşdirməkdə əsas aləti və örtüyü olub. Belə olan halda ortaya belə bir məntiqi sual çıxır: terror təşkilatları ilə bu və ya digər formada əlaqədə olmaq, əməkdaşlıq etmək onların bəşəri cinayətlərinə şərik olmaq demək deyilmi?

Filmdə göstərilir ki, 2010-cu ildə Suriya bazarına daxil olan "Lafarge" fransız şirkəti Türkiyə və Suriyanı İraqla birləşdirən nəqliyyat yolunun üzərində zavod tikib. Hərbi əməliyyatlar səbəbindən Suriyadan bütün şirkətlər qaçdığı halda, Fransa rəhbərliyinin təkidi ilə şirkət Suriyada qalmağa məcbur edilib və qaçırılan işçilərini geri almaq və fəaliyyətini təhlükəsiz davam etdirə bilmək üçün İŞİD və PKK terror təşkilatlarını maliyyələşdirib. Digər mühüm bir fakt: Əl-Cəzirə telekanalının yaydığı sənədli reportaja görə, YPG/PKK terror təşkilatlarının nəzarətində olan Suriyanın Haseke vilayətinin Türkiyə ilə sərhədində yerləşən Amuda və Malikiyyə bölgələrində təxminən 113 kilometr uzunluğunda tunel qazılıb. Digər jurnalist araşdırmalarında göstərilir ki, həmin tunellərdə betonlama işləri məhz "Lafarge" şirkətinin istehsal etdiyi sement məhsulları ilə aparılıb. Bildirilir ki, şirkət istehsal etdiyi sementi məhz adı çəkilən terror təşkilatlarına onların mövqelərini möhkəmləndirmək üçün verib. Qeyd edək ki, "Lafarge" şirkətinin fəaliyyət göstərdiyi və onun təsir edə bildiyi bölgələr yerli əhalini öz yurdlarını tərk etməyə məcbur qalan bölgələr sırasında öndə gedir.

Fransada aparılan təhqiqata görə, şirkət vasitəsilə terror təşkilatlarına 16 milyon dollara yaxın maliyyə ötürülməsinə dair sübutlar tapılıb, lakin TRT-nin araşdırması bu rəqəmin daha yüksək olduğunu və bundan Fransa rəhbərliyinin xəbərdar olmasını üzə çıxarır. Faktlar təsdiq edir ki, bütün bunlar Fransanın indiki Prezidenti Emmanuel Makronun həmin dövrdə Fransanın xaricdəki sərmayələrinə məsul olan iqtisadiyyat naziri olduğu dövrdə baş verib.

Haqqında söhbət edilən sənədli filmdə əksini tapan məqamlar, əslində, Azərbaycan ictimaiyyətində təəccüb doğurmayıb. Çünki 44 günlük Vətən müharibəsi dövründə Azərbaycanın yaşayış məntəqələrini, dinc insanları atəşə tutan, terror aktları törədən Ermənistanı Fransanın açıq şəkildə himayə etməsi, ona humanitar yardım adı altında təyyarələrlə silah-sursat daşıması, terrorçuluğu maliyyələşdirməsi ortada idi. Beynəlxalq hüququn tələblərinə görə, Fransa Minsk Qrupunun həmsədri olaraq keçmiş Qarabağ münaqişəsinə aid bütün məqamlarda ən azı bitərəf qalmağa borclu olsa da, təcavüzkarı, işğalçı və terrorçu Ermənistanı açıq şəkildə dəstəkləmişdir. Fransanın Vətən müharibəsi dövründə suriyalı döyüşçüləri, terrorçu dəstələri Azərbaycana qarşı istifadə etməsi barədə də geniş informasiyalar vardı. Buna baxmayaraq, Fransa Azərbaycana böhtan ataraq guya suriyalı terrorçuların Azərbaycan tərəfindən döyüşməsi barədə dezinformasiyalar tirajlayırdı. Azərbaycan dövlətinin bu iddialara sübut tələblərinə qarşı Fransa nə müharibə dövründə, nə də sonra bir fakt belə ortaya qoya bilməyərək rüsvay oldu.

TRT-nin faktlar əsasında ekrana çıxardığı sənədli film Fransa rəhbərliyində təmsil olunan şəxslərin beynəlxalq terrorçuluğa dəstək verməklə bəşəri dəyərlərə xəyanətinin növbəti sübutudur. Təkzibolunmaz faktlar sübut edir ki, Fransanın yaxın Şərqdəki bəşəri cinayətləri bir sıra qlobal problemlərin, eləcə də Avropa başda olmaqla dünyanın üz-üzə qaldığı beynəlxalq terrorizmin və qaçqınlar probleminin təməlini təşkil edir.

Məlum olduğu kimi, 2020-ci il avqustun 4-də Beyrut limanında baş vermiş dəhşətli partlayış böyük fəlakət yaratmışdı. Dünya dövlətləri bu fəlakətlə bağlı Livana yardım etdikləri halda, Fransa yaranmış vəziyyətdən istifadə edərək özünün istismarçı maraqlarını qabarıq şəkildə ortaya qoydu. Məsələn, Anadolu Agentliyi yazır ki, Emmanuel Makronun Livanın paytaxtı Beyrutda Livan limanında baş verən partlayışdan sonra avqustun 31-də ölkəyə ikinci səfəri Fransanın bölgədəki xarici siyasət strategiyalarının alt mətninin açıq siqnalı idi. Ölkədə indiyədək heç vaxt görünməyən Fransa mandatının bərpası göstərir ki, Livandakı siyasi təlatümlər Livan xalqının deyil, Fransanın xeyrinə şüurlu şəkildə yenidən bərpa oluna bilər. Bu, həm də onun təsdiqidir ki, Emmanuel Makronun fəaliyyəti və düşüncə tərzi imperialist maraqlar çərçivəsindən kənara çıxmayıb.

# Yəmənli jurnalist: Azərbaycan bizim üçün müasirlik, tərəqqi, sabitlik və humanizm örnəyidir

***Yəmənin "Əl Tənmiyə Press" agentliyinin saytında jurnalist Əbdülhəmid Əl-Kubinin Azərbaycanın silahlı münaqişə və ağır sosial vəziyyətdə olan bu ölkəyə yardımları barədə məqaləsi yayımlanıb.***




AZƏRTAC xəbər verir ki, məqalədə Yəmənin xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətinin 2019-cu il oktyabrın 24-də Bakıda keçirilən Qoşulmama Hərəkatının Zirvə görüşündə iştirak etməsindən, iki ölkənin beynəlxalq və İslam təşkilatları çərçivəsində əməkdaşlığından bəhs olunur.




Müəllif diqqətə çatdırır ki, humanitar layihələr həyata keçirən Azərbaycan hökuməti yəmənli tələbələrin Bakıda təhsil almalarına şərait yaradıb, onlara təqaüd ayırıb. Bundan başqa, 2017-ci ildə Prezident İlham Əliyevin göstərişinə əsasən Azərbaycanın Beynəlxalq İnkişafa Yardım Agentliyi humanitar fəlakət yaşayan Yəmənə maliyyə yardımı göstərib.

Məqalədə Yəmən xalqının Azərbaycanın 44 günlük müharibədə Qələbəsinə sevindiyi qeyd olunub. Müəllif vurğulayıb ki, Ermənistanın işğalına son qoyulması bütün müsəlman xalqlarının, o cümlədən yəmənlilərin haqqın və ədalətin öz yerini tapacağına inamını artırıb. O əlavə edib ki, Yəmən KİV-ləri Azərbaycan haqqında həqiqətləri geniş yayır, eyni zamanda, iki ölkənin media nümayəndələri arasında əməkdaşlığa can atır. "Prezident İlham Əliyevin Lideri olduğu Azərbaycan bizim üçün müasirlik, tərəqqi, sabitlik və humanizm örnəyidir. Biz ərəbdilli oxuculara dost ölkənin iqtisadi inkişafı, füsunkar təbiəti, turizm potensialı və zəngin mədəni irsi barədə mütəmadi məlumat veririk. Yəmənlə Azərbaycan arasında daha sıx əməkdaşlığın qurulması hamımızın arzusudur", - deyə Əl-Kubi məqaləninin sonunda qeyd edib.

# "DƏMİR YUMRUĞ"un gücü bizi əzəli torpaqlarımızdan olan Kəlbəcərə qaytardı!

***30 ilə yaxın həsrətlə gözlədiyimiz, xəyalımızda canlandırdığımız erməni işğalında olan torpaqlarımıza qovuşmuşuq. Hər gün əzəli, doğma yurdumuza qayıtmaq arzumuz, istəyimiz reallığa çevrildi. Yolumuz yurd yerlərimizə, işğaldan azad edilmiş doğma, isti ocaqlarımızadır. 44 günlük Vətən müharibəsində 30 ilə yaxın işğal altında olan ərazilərimiz erməni təcavüzkarlarından azad edərək, doğma torpaqlarımıza qovuşmuşuq.***



Milyonların arzusu çin oldu. Dəmir yumruğun gücünə Azərbaycan Prezidenti, Rusiya Prezidenti və Ermənistan baş nazirinin imzaladıqları bəyanata əsasən, 10 noyabr 2020-ci il tarixində Moskva vaxtı ilə saat 00.00-dan etibarən Dağlıq Qarabağ münaqişəsi zonasında atəşin və bütün hərbi əməliyyatların tam dayandırılması elan olundu. Üçtərəfli bəyanata əsasən, 15 noyabr tarixində Kəlbəcərin təhvil verilməsi qərarlaşdırılsa da, Ermənistan tərəfinin Rusiya vasitəsilə Azərbaycandan xahişi ilə bu müddət 25 noyabr tarixinə qədər uzadıldı və ötən ilin bu günü Kəlbəcər işğaldan azad olundu. Beləliklə, Ermənistan Silahlı Birləşmələri Kəlbəcər rayonunu boşaldıb, Azərbaycan Silahlı Qüvvələrinə təhvil verdi.

Məğlubiyyətlə barışa bilməyən erməni əhalisi bölgədə Azərbaycana qarşı ekoloji terror fəaliyyətləri həyata keçirib. Ərazini tərk edən ermənilər evlər ilə yanaşı, meşələri də yandırıblar. Cari ilin avqustun 16-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci Xanım Mehriban Əliyeva Kəlbəcər və Laçın rayonlarında olarkən dövlət başçısı çıxışında bildirdiyi kimi, "Rusiya rəhbərliyi bizə müraciət etmişdir ki, onlara əlavə on gün vaxt verin, onlar buradan öz şələ-şüləlerini yığışdıra bilmirlər. Onlara vaxt verin ki, çıxsınlar. Biz yenə də humanistlik göstərdik. Yenə də vaxt verdik noyabrın 25-nə qədər. Amma onlar bu müddət ərzində nə etdilər?! Onlara məxsus olmayan, qanunsuz məskunlaşdıqları evləri yandırdılar, dağıtdılar. İndi yol boyunca o evlər görünür. Ağacları kəsdilər, ağacları yandırdılar. Bax, erməni vəhşiliyi budur. Zaman dəyişir, erməni faşizmi dəyişmir və dəyişməyəcək. Heç kim bunu unutmamalıdır".



Təhlil

## "KƏLBƏCƏRİN İŞĞALA MƏRUZ QALMASI SATQIN AXC-MÜSAVAT HAKİMİYYƏTİNİN ƏMƏLLƏRİDİR"

Əlbəttə ki, tarix boyu ermənilərin faşist ideologiyasının şahidi olmuşuq, İllər, qərinələr ötsə də belə ermənilərin məramı dəyişməz olaraq qalıb. Tarixi faktlar bunu göstərir. 1993-cü ildə erməni silahlı dəstələri tərəfindən işğal edilmiş Kəlbəcərdə 511 nəfər şəhid olmuş, 231 nəfər itkin düşmüş, 100-lərlə adam şikəst olmuşdur. 130 yaşayış məntəqəsi, 500-dən artıq sənaye, tikinti, məişət, ticarət obyekti, 172 mədəniyyət obyekti, 96 ümumtəhsil məktəbi, 76 səhiyyə obyekti, 1 muzey darmadağın edilmişdir. 100 min baş qaramal, 500 min baş qoyun-quzu, 100-lərlə maşın, texnika, avadanlıq talan olunmuşdur. Bu statistik rəqəmlər insanlığa sığmayan erməni xislətini ortaya qoymuş olur. Əlbəttə ki, bu bir rayonun işğal dövründə olan statistik göstəriciləridir. Digər ərazilərimizdə də ermənilər belə vəhşilikləri ilə nə qocaya, nə cavana, nə uşağa belə aman vermədən onları öldürmüş, bütün infrastrukturu, yaşayış yerlərini, maddi-mədəniyyət abidələrini dağıtmış, yerlə-yeksan etmişdir. 1993-cü ilin qiymətləri ilə Kəlbəcərə azı 761 mln. ABŞ dolları dəyərində ziyan dəymişdir. Əlbəttə ki, XX əsrin sonlarında yenidən müstəqillik qazanmaq kimi tarixi fürsəti əldə edən Azərbaycan qısa vaxtdan sonra onun itirilməsi təhlükəsi ilə üzləşdi. Müstəqilliyimizin ilk illərində hərc-mərclik, özbaşınalıq hökm sürürdü. Belə bir zamanda, Azərbaycanın 20 faiz torpaqları işğal altına düşdü. Azərbaycan Prezidenti çıxışında bildirdiyi kimi, Kəlbəcərin işğala məruz qalması satqın AXC-Müsavat hakimiyyətinin əməlləridir: "Kəlbəcər işğal altına düşəndən sonra Ermənistanla keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti arasında birbaşa coğrafi bağlantı yarandı və artıq digər torpaqların işğalı da labüd idi. Çünki AXC-Müsavat hakimiyyəti ordu quruculuğuna fikir vermirdi, orduda heç bir islahat aparılmırdı. Əksinə, ordumuzu zəifləmək üçün hər vasitədən istifadə edirdi. Torpaqlar işğal altına düşürdü, onlar isə öz laxlamış hakimiyyətini qorumaq üçün Gəncəni bombalayırdılar. Onlar Azərbaycan əsgərlərini əsir götürmüşdülər. Bu videokadrlar var. Burada ermənilər soyqırımı törədirdilər, şəhərlərimizi viran qoyurdular. Baxın, Kəlbəcər nə gündədir, digər şəhərlər nə gündədir. AXC-Müsavat hakimiyyəti, onun başında duranlar fəraridirlər, satqındırlar, qorxaqdırlar, xaindirlər və bu, əsl həqiqətdir".

## "ƏGƏR İSTƏMİRLƏRSƏ Kİ, BİZ ONLARI DÜNYA MİQYASINDA BİABIR EDƏK, GƏLSİNLƏR, VURULMUŞ ZİYANI BİZƏ ÖDƏSİNLƏR"

Kəlbəcər rayonunda sənaye əhəmiyyəti olan civə ehtiyatları Şorbulaq və Ağyataqda yerləşir. Kəlbəcər rayonu ərazisində sənaye əhəmiyyətli ehtiyatları 112,5 ton olan və istismar olunan Söyüdlü (Zod) və ehtiyatları 13 tondan çox olan Ağduzdağ və Tutxun qızıl yataqları 27 il idi ki, Ermənistan respublikası tərəfindən talan edilirdi. İşğal edilmiş ərazilərdə 155 adda müxtəlif növ faydalı qazıntı yataqları mövcud olub.

Ardı Səh. 4





# "DƏMİR YUMRUĞ"un gücü bizi əzəli torpaqlarımızdan olan Kəlbəcərə qaytardı!







Əvvəli-Səh-3

Ermənilər bu ehtiyatlardan daha çox qızılı talan ediblər. Zod mədəninin qanunsuz istismarı nəticəsində Ermənistan büdcəsi təkcə 2019-cu ildə 52 milyon ABŞ dolları qazanıb. Bir faktı da diqqətə çəkək ki, 1997-ci ildə Ermənistan Sənaye və Ticarət Nazirliyi Söyüdlü (Zod) yatağinin istismari üçün Kanadanın "First Dynasty Mines" (FDM) şirkəti ilə müqavilə imzalayıb. Yalnız 2003-2004-cü illərdə burada 4,5 ton təmiz qızıl istehsal edilib. Cənab Prezident çıxışlarının birində ermənilərin işğal dövründə bizim təbii sərvətlərimizi də qanunsuz olaraq talan etdiklərini bildirmiş və bu işlərdə bəzi xarici şirkətlərin onlara yardım etdiyini də diqqətə çəkmişdir: "Bu şirkətlərin indi iki yolu var: ya bizə təzminat ödəyəcəklər, ya da ki, beynəlxalq məhkəməyə gedəcəklər. Artıq məhkəmə prosedurları başlamışdır. Buna biz start verdik, tanınmış beynəlxalq hüquq şirkətlərinidəvət etdik və indi məhkəmə işləri hazırlanır. Kəlbəcərdə Söyüdlüdə, Zəngilanda Vejnəlidə, başqa yerlərdə bizim qızıl yataqlarımız xarici şirkətlər tərəfindən istismar edilirdi. O şirkətlər bilmirdilər ki, bu, Azərbaycan torpağıdır? Bilirdilər! Amma buna məhəl qoymurdular. İndi cavab verəcəklər. Biz demişik, əgər istəmirlərsə ki, biz onları dünya miqyasında biabır edək, gəlsinlər, vurulmuş ziyanı bizə ödəsinlər, təzminat ödəsinlər və ondan sonra rahat yaşaya bilərlər".

Bu gün işğaldan azad olunan ərazilərimiz kimi, Kəlbəcərdə də quruculuq-abadlıq işlərinə start verilib. "Kəlbəcər" yarımstansiyası istifadəyə verilib. Qısa müddətdə - cəmi altı ay ərzində inşa edilib və Kəlbəcəri elektrik enerjisi ilə təmin edəcək. Tunellər tikilir. Toğanalı-Kəlbəcər avtomobil yolu üzərində Murovdağında 11.6 kilometrlik tunel inşa olunur. Göygöl və Kəlbəcər rayonlarını birləşdirən avtomobil yolunun layihə uzunluğu 81 kilometr təşkil edir. Pilot layihələr kimi Kəlbəcər və Laçın rayonlarının arıçılıqla və heyvandarlıqla məşğul olan sakinləri Kəlbəcərə ezam ediliblər. Cənab Prezidentin bildirdiyi kimi, "Heyvandarlar da Kəlbəcər yaylaqlarına qayıdıblar. Həm arıçıları, həm heyvandarlıqla məşğul olanları biz qaytarmışıq. Görürsünüz, onlar məskunlaşıblar. Qoyunları da burada otarırlar. Bu ənənə də bərpa edildi".





Görülən işlər tezliklə kəlbəcərlilərin öz doğma yurdlarına qaydacaqlarına söykənir. Kəlbəcər torpağı öz əbədi sakinlərinindir. Cənab Prezidentin vurğuladığı kimi, "Tarixi ədalət bərpa olundu və biz ölkəmizin bəlkə də ən gözəl rayonlarından biri olan Kəlbəcərə nəinki qayıtmışıq, Kəlbəcərin inkişafı ilə bağlı artıq planlarımızı reallaşdırırıq".

***Nəzakət ƏLƏDDİNQIZI***

# Lyuk Kofi: “Azərbaycanla Ermənistan arasında dayanıqlı sülhə ehtiyac var”

***İngilis dilində nəşr olunan nüfuzlu "Arabnews" qəzetində Daqlas və Sara Elison Xarici Siyasət və İrs Fondunun direktoru Lyuk Kofinin "Azərbaycanla Ermənistan arasında uzunmüddətli sülhə ehtiyac var" sərlövhəli analitik məqaləsi dərc edilib.***




AZƏRTAC xəbər verir ki, məqalədə 44 günlük müharibənin başa çatmasının ildönümündən bir həftə sonra regionda yaranmış vəziyyət təhlil edilib. Müəllif vurğulayıb ki, müharibə zamanı Azərbaycan ərazilərini Ermənistanın işğalından azad edib, bölgədə atəşkəsə nail olunub. Lakin son vaxtlar sərhəddə baş verən hadisələr göstərdi ki, dayanıqlı sülhə ehtiyac var. Sərhədlərin demarkasiyasının mühüm məsələ olduğunu diqqətə çatdıran politoloq qeyd edir ki, regionda rus qoşunlarının mövcudluğu zəif Ermənistan üçün əlverişlidir.

L.Kofi yazır: ”Ötən il baş vermiş müharibədən bəri Ermənistan israrla Rusiyanı öz tərəfində müharibəyə cəlb etmək istəyirdi. Lakin ermənilərin əksəriyyəti Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının neytral mövqeyindən məyus olublar. Azərbaycandan fərqli olaraq, Ermənistan həmin təşkilatın üzvüdür. Amma rəsmi Yerevanın təzyiqinə baxmayaraq, KTMT müharibəyə müdaxilə etmədi, çünki döyüşlər Azərbaycanın beynəlxalq miqyasda tanınmış ərazilərində gedirdi. Təşkilat bildirdi ki, bu məsələdə Ermənistana yardım etmək öhdəliyi yoxdur”.

Politoloq qeyd edib ki, hazırda Azərbaycanın Ermənistanla müharibə aparmaq niyyəti yoxdur. Çünki rəsmi Bakı ötən il müharibə nəticəsində məqsədlərinə nail olub və əraziləri işğaldan azad edib. İndi onun əsas diqqəti azad olunmuş ərazilərdə yenidənqurma işlərinə yönəlib. Bu, həm də beynəlxalq sərmayələrin regiona cəlb olunmasını ehtiva edir. Aydındır ki, gərginliyin artması bu işləri ləngidə bilər.

Zəngəzur dəhlizinin də əhəmiyyətindən bəhs edən L.Kofi diqqətə çatdırıb ki, Naxçıvanla quru yolunun olmaması uzun müddət Bakını narahat edib. ”Dondurulmuş” münaqişə illərində Ermənistan Azərbaycanın bu eksklavını blokadada saxlayıb, hətta öz ərazisindən hava məkanını da bağlayıb. Lakin 44 günlük müharibədən sonra imzalanan Bəyanat nəqliyyat dəhlizlərinin açılmasını da nəzərdə tutur. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyini təmin etməlidir.

Məqalənin sonunda Azərbaycanla Ermənistan arasında dayanıqlı sülhə nail olmaq üçün beynəlxalq ictimaiyyətə səylərini artırmaqla bağlı çağırış yer alıb.

# “Fransa tarix boyu Ermənistana böyük bacılıq edib"

***"Artıq biz Fransanın Ermənistanı bu və ya digər formada dəstəkləməsinin dəfələrlə şahidi olmuşuq. Özlərini "nazir", "parlament spikeri" adlandıran bir yerin təmsilçiləri Fransada əgər, qonaq kimi qəbul edilirsə, bu həqiqətən də karikatura obrazı yaradır. Yəni bu siyasətin karikaturasıdır". Bu sözləri SİA-ya açıqlamasında deputat Vüqar İsgəndərov deyib.***

Onun sözlərinə görə, çünki 44 günlük Vətən müharibəsində biz Ermənistan ordusunu darmadağın etdik və beynəlxalq hüququn prinsiplərini bərpa etdik: ”Artıq Azərbaycanda Dağlıq Qarabağ adlı bir bölgə mövcud deyil. Azərbaycanda Qarabağ İqtisadi Zonası, Şərqi Zəngəzur İqtisadi Zonası var. Həm parlament, həm cəmiyyət Fransanın bu cür hərəkətləri ilə bağlı fikirlərini söyləyib. Bu məsələdə bir neçə suallar yaranır. Bunlardan biri Fransanın ATƏT-in Minsk qrupunun həmsədri kimi burada qalmağına ehtiyac yaranırmı? İkinci sual isə ümumiyyətlə ATƏT-in Minsk qrupunun mövcud olmasına ehtiyac varmı? Ən əsası budur ki, əgər, ATƏT-in Minsk qrupu mövcud olsa da, Fransanın orada olmağa mənəvi haqqı yoxdur. Çünki həmin sülh yaratma proseslərinə ən birinci məsələsi özündə tərəfsizlik ehtiva edir”.



Deputat sözlərinə davam edərək həmçinin qeyd edib ki, Fransa bu münaqişənin həll olunması üçün göstərdiyi səylərdə tam tərəfsiz olmalıdır: ”Biz amma Fransada bunu görmürük. Əksinə Fransa tarix boyu Ermənistana böyük bacılıq edib. Bu gün də bu açıq-aşkar görünür. Parisin bizə qarşı qərəzli siyasəti yeni deyil. Sonradan Fransa siyasi dairələrində ”bu bizim dövlətimizin mövqeyi deyil” kimi nəğmələri, bayatıları eşitmişik. Amma açıq-aşkar şəkildə Fransanın bu məsələdə bizə qarşı qərəzi var. Fransa özü artıq bu siyasətində ciddi dəyişiklik etməli və artıq öz siyasətində götür-qoy etməlidir. Ona görə də bu artıq Fransa siyasəti üçün çox vacib məsələdir. Həm Fransa siyasiləri, həm hökumət, parlament üzvləri, həm də yerli bələdiyyə, idarəetmə orqanlarının nümayəndələri, rəhbərləri bilməlidirlər ki, etdikləri hərəkətin və göstərdikləri mövqenin aqibəti yaxşı olmayacaq”.

***Arzu Qurbanzadə***

# İlqar Vəlizadə: ”Ermənistanın baş nazir Nikol Paşinyan xalqını, beynəlxalq ictimaiyyəti növbəti dəfə aldadır”



***Ermənistanın baş nazir Nikol Paşinyan xalqını, beynəlxalq ictimaiyyəti növbəti dəfə aldadır, reallıqları öz istədiyi kimi göstərməyə cəhd edir. Paşinyan reallıqları təhrif edərək belə bir mənzərə yaratmaq istəyir ki, guya Azərbaycan Zəngəzur dəhlizini yaratmaqla Ermənistanın ərazisinə göz tikib. Bu cəfəng və yanlış fikirlər ona hesablanıb ki, beynəlxalq ictimaiyyətin bununla bağlı təəssübkeşliyini əldə etsin və Azərbaycana təzyiq göstərsin.***

Eyni zamanda, Nikol Paşinyan sərhəddə gedən prosesləri də yenə təhrif olunmuş formada təqdim edərək belə bir mənzərə yaratmağa çalışır ki, guya Azərbaycan Ermənistan torpaqlarını işğal edir. Hərçənd ki, məhz Ermənistan Azərbaycanın Qazax istiqamətində yeddi, Naxçıvan istiqamətində bir kəndini işğal altında saxlamaqda davam edir. Bu fikirləri AZƏRTAC-a açıqlamasında politoloq İlqar Vəlizadə deyib.

”Əslində, üçtərəfli Bəyanatda əks olunan 9-cu bənddə Zəngəzur dəhlizi ilə bağlı hər şey aydın yazılıb. Orada göstərilib ki, Azərbaycanın qərb rayonları Naxçıvan Muxtar Respublikası ilə müvafiq yollarla birləşir, rabitələr yaradılır, beləliklə, regionda bütün kommunikasiyalar açılır. Yəni, sovetlər dövründə mövcud olan bütün dəhlizlər, kommunikasiyalar, həm avtomobil, həm də dəmir yolları açılmalıdır. Nikol Paşinyan isə belə bir ifadə işlədib ki, guya hansı kommunikasiyaların açılmasını məhz Ermənistan müəyyənləşdirməlidir. Bu da cəfəng bir fikirdir. Ona görə də üçtərəfli komissiya bütün bu məsələlərə aydınlıq gətirəcək. Regional liderlərin ”kommunikasiyalar açılmalıdır və regionun bütün ölkələrinə xeyir gətirməlidir” kimi ümumi yanaşması qalib gələcək”, - deyə İlqar Vəlizadə qeyd edib.

# İnsanlar niyə itkin düşür?

*İtkin düşən şəxsin tapılması üçün hüquq-mühafizə orqanlarına edilən müraciətlə birlikdə özəl əməliyyat idarələrindən də xidmətlər götürülə bilər. Əməliyyat büroları təklif etdikləri itkin axtarış xidməti ilə itkin düşmüş şəxsin yerinin müəyyən edilməsində peşəkar dəstək verir. Əldə etdiyi məlumatlarla hüquq-mühafizə orqanlarına dəstək verən detektivlər prosesi sürətləndirir. Uşaq, yeniyetmə və ya böyüklərin itkin düşməsi hallarında itkin düşmə şübhəsi yaranan kimi rəsmi bölmələrlə birlikdə özəl əməliyyat idarələrinə müraciət etmək vacibdir.*





TƏHLİL

### Türkiyədə nə qədər itkin uşaq var?

Cümhuriyyət Xalq Partiyasının sədr müavini Gamze Akkuş İlgezdinin hazırladığı hesabata görə, TÜİK-in 81 ildə apardığı araşdırmanın məlumatlarına əsaslanaraq orta hesabla 32, hər il 10 min uşaq itkin düşür və itkin düşən hər 10 uşaqdan 1-i sağ tapılmayıb.

### Kimsə itəndə nə etməli?

Kimsə itkin düşəndə gecikmədən hüquq-mühafizə orqanlarına məlumat verməк lazımdır. İtkin düşmüş şəxsin həyat təhlükəsizliyinə təhlükə yaratmamaq üçün tələsik hüquq-mühafizə orqanları əməkdaşlarına köməklik göstərilməsi üçün itkin düşmüş şəxsin pasport şəkli ilə özəl əməliyyat idarələrinə müraciət etmək lazımdır.

### İtirilmiş insanı necə tapmaq olar?

İtkin düşən şəxsin tapılması ətraflı araşdırma tələb edir. Hüquq-mühafizə orqanlarının əməkdaşları həmin şəxsin yaxınlarını dindirməklə yanaşı, onun sonuncu dəfə göründüyü ərazilərdə də araşdırmalarını gücləndirir və həmin şəxsin yerini aşkar edə biləcək ipuçları toplayırlar. Şəxsin son dəfə göründüyü bölgələrdəki kamera qeydləri araşdırılarkən ictimai nəqliyyat vasitələri və şəhərlərarası səyahət qeydləri izlənilir. Bu prosesdə xüsusi detektivdən dəstək alındıqda virtual və fiziki təqib mərhələləri ilə itən şəxsin tapılması sürətləndirilir.

### Niyə yoxa çıxan şəxsi tapmaq üçün detektiv işə götürməliyəm?

İtkin düşən şəxs üçün detektivin işə götürülməsi axtarış prosesinə böyük töhfə verir. Təcrübəli kadrları və güclü əlaqələri ilə özəl detektiv agentlikləri eyni vaxtda Türkiyənin hər yerində itkin düşənləri axtarır. Yüksək səfərbərlik bacarıqlarına malik özəl detektivlər, alternativ tədqiqat metodları ilə itkin düşmüş şəxslərin tapılmasında qəti nəticə təklif edirlər.

### Maddə 41. Fiziki şəxsin ölmüş elan edilməsi

Əgər şəxsin yaşayış yerində onun harada olması barədə beş il ərzində məlumat olmazsa, habelə o, ölüm təhlükəsi törədən və ya hansısa bədbəxt hadisədən həlak olduğunu güman etməyə əsas verən şəraitdə xəbərsiz itkin düşərsə və ondan altı ay ərzində xəbər çıxmazsa, o, məhkəmə qaydasında ölmüş elan edilə bilər.

### Maddə 42. Ölmüş elan edilmiş şəxsin gəlməsinin nəticələri

42.1. Ölmüş elan edilmiş şəxs gəldikdə və ya onun olduğu yer aşkar edildikdə məhkəmə onun ölmüş elan edilməsi barədə qərarı ləğv edir. 42.2. Nə vaxt gəlməsindən asılı olmayaraq, şəxs onun ölmüş elan edilməsindən sonra əvəzsiz olaraq başqa şəxsə verilmiş əmlakın qalan hissəsinin qaytarılmasını tələb edə bilər. 42.3. Ölmüş elan edilmiş şəxsin əmlakını əvəzli əldə etmiş şəxs bu əmlakı ona qaytarmağa o halda borcludur ki, əmlakı əldə edərkən onun ölmüş elan edilmiş şəxsin sağ olduğunu bildiyi sübuta yetirilsin.

42.4. Əgər ölmüş elan edilmiş şəxsin əmlakı dövlətin mədaxilinə keçirilmiş və satılmışdırsa, həmin şəxsin ölmüş elan edilməsi haqqında qərarın ləğvindən sonra əmlakın satışından götürülmüş məbləğ ona qaytarılır.

Avropa Birliyinin üzvü olan Polşada hər il 20 min insan itkin düşür. Fərqli yaş və sosial qruplara mənsub olan bu insanların bəzilərinə bir müddət sonra rast gəlinsə də, bəzilərinə isə ümumiyyətlə çatmaq olmur. İtkin düşmə halları ümumiyyətlə ölkə daxilində baş verir, az sayda polyak xaricdə yoxa çıxır. 2002-ci ildə magistrlik dissertasiyası üçün araşdırma aparmaq üçün Türkiyəyə gəldikdən sonra yoxa çıxan Rafal Jedraszuk hələ də izləri tapıla bilməyənlər arasındadır.

Polşa polisinin məlumatına görə, itkin düşənlərin sayı günü-gündən artır. 2010-cu ildə həlak olanların sayı 14 min 393 nəfər olduğu halda, bu rəqəm hər il artaraq 2012-ci ildə 17 min 969, 2013-cü ildə 19 min 617, 2014-cü ildə 20 min 845 nəfərə çatıb. 2015-ci ildən sonra itkilərin sayı heç vaxt 20 mindən aşağı düşməyib. İtkin düşənlərin əksəriyyəti bir müddət sonra polis tərəfindən tapılır, lakin hər il tapılanların yerinə yeni itkilər əlavə edilir.

### Kimisi xəstədir, kimisi qayıtmağa utanır

19 ildir Polşada itkinləri izləyən İTAKA Vəqfindən Karolina Kravczuk itkin düşənlərin bəzilərinin Alzheimer xəstəliyi və psixiatrik müalicəsi olan insanlar olduğunu bildirib. Kravczuk, itkilərin başqa bir hissəsinin də iş məqsədi ilə başqa ölkələrə gedən və müxtəlif səbəblərdən uğursuzluğa düçar olanlardan ibarət olduğunu, lakin bu vəziyyəti geridə qoyduqlarını açıqlamaqdan qürur duya bilməyəcəyini bildirib. Kravczuk deyir ki, geri dönməyə imkanı olmayan bu insanların əksəriyyəti həyatdan heç bir gözləntiləri olmadığı üçün spirtli içkilərə və narkotiklərə alışıblar.

Hər il itkin düşən 20.000 polyakdan başqa bir hissəsi həyatlarını dəyişməyə qərar vermiş insanlardır. Karolina Kravczuk deyir ki, həyat yoldaşı, valideyn, uşaq kimi üzərinə götürdükləri məsuliyyətlərdən yorulan və ya yeni həyata başlamaq qərarına gələn bu insanlar bir səhər paltarları ilə evdən çıxırlar. Heç kimlə əlaqə saxlamadan yepyeni bir həyata başladıqlarını ifadə etdi. İtkin şəxsin müraciətindən sonra apardıqları araşdırmalar nəticəsində çatdıqları itkinlərdən bəzilərinin ailələri ilə görüşmək istəmədiyinə diqqət çəkən Kravczuk, "Belə hallarda biz bu barədə məlumat vermirik. Ailəyə çatdığımız şəxsə, ailəyə yalnız axtardığımız adama çatdığımızı, sağ olduğunu, lakin onlarla əlaqə saxlamaq istəmədiyini bildiririk".

Vəqfin 19 illik fəaliyyəti nəticəsində indiyə qədər yüz minlərlə itkin müraciət aldıqlarını ifadə edən Karolina Kravczuk, itkin düşmüş halların bəzilərinin intihar və qətl kimi ölümlə nəticələndiyini ifadə edib. Bəzən insan alveri ilə qarşılaşırdı. Kravczuk, ailəsinin itkin düşməsi ilə bağlı şikayət ərizəsi ilə müraciət etdiyi 20 yaşlarında gənc polşalı qadının tanışının dəvəti ilə işə getdiyi Londonda saxlanılaraq fahişəliyə məcbur edildiyini və nəticədə qadının xilas edildiyini bildirib. Polşa və Britaniya polisinin mütəşəkkil işindən o, verdiyi vədlə aldadıldığını və saxlanıldığını bildirib. "Onlar çox vaxt ixtisası olmayan, təhsili olmayan, dil bilməyən insanları daha yüksək maaş və yaxşı şərait vədləri ilə aldadırlar. Sözügedən işçilər söz verilən ölkədə iş yerinə getdikdə onların pasportları və şəxsiyyətini təsdiq edən sənədlər işəgötürənlər tərəfindən götürülür. Şəhərdən kənarda telefon və internetin olmadığı iş yerlərində, emalatxanalarda və tarlalarda gündə 18 saat qul kimi işləməyə məcbur edilirlər. Onları hədələyirlər, döyürlər, işgəncələrə məruz qoyurlar, hətta vəd etdikləri maaşı almamağa etiraz etdikləri halda həbsə atırlar. Bu insanlar ümumiyyətlə qorxularından vəziyyətə etiraz edə bilmirlər, saxlandıqları yer şəhərdən kənarda, ucqar yerdə olduğundan kömək axtarmağa yer tapa bilmirlər. Ən əsası isə dil bilmədikləri üçün təsadüfən kiminləsə rastlaşsalar belə, təəssüf ki, vəziyyətlərini izah edə bilmirlər".

İtkinlərin daha çox Polşa sərhədləri daxilində baş verdiyinə diqqət çəkən Karolina Kravczuk, az sayda polyakların da olduqları ölkələrdə müxtəlif səbəblərdən yoxa çıxdığını da ifadə etdi. Vəqf olaraq itmiş polyakların axtarışını bütün dünyada, xüsusilə də Avropa ölkələrində də apardıqlarını ifadə edən Kravczuk, 2002-ci ildə Türkiyədə bir polşalı universitet tələbəsinin itdiyini bildirib. Kravczuk "İtkin düşəndə 27 yaşı olan Raphael Jedraszuk 2002-ci ildə magistr dissertasiyası üçün araşdırma aparmaq üçün Türkiyəyə getdi, lakin ondan bir daha xəbər alınmadı. Ailəsindən verilən məlumata görə, Jedraszuk müvafiq olaraq Türkiyə, Gürcüstan və Azərbaycanda magistr dissertasiyası üçün material toplamaq niyyətində idi. Ancaq rəsmi orqanlardan indiyə qədər təsdiq edə bildiyimiz yeganə şey Jedraszukin Türkiyəyə daxil olması və oradan çıxmamasıdır".

SİA araşdırma apararaq psixoloq, sosioloq və ekspertlərin fikirlərini öyrənib: Məsələ ilə bağlı psixoloq Zeynəb Eyyubova psixoloji cəhətdən bu halları izah edib: "Əgər bunu araşdırmalı olsaq baxmalıyıq ki, söhbət şəhər mühitindən gedir, yoxsa rayon və ya kəndlərdən gedir. Hər iki halda problem ailədən qaynaqlanır. Əgər bir qız uşağı dayanmadan evində rahatlığı olmursa müəyyən etapdan sonra rahatlıq axtarmaq üçün başqa bir yerə getmək istəyir, qaçmaq istəyir. Bu həmişə belə rahat formada olmur ki, tutaq ki, gedir və rahatlıq tapır. Ona görə də 13-15-20 yaşında bir qaçmağa meylli olan qız artıq sonra geri dönüş edə bilmir.

Evinə qayıda bilməyən bir qız hardasa ya əziyyət çəkir, ya problem yaşayır, ya normal olmayan bir həyat yaşayır və bilavasitə ailədən qaynaqlanaraq artıq ailə mühitində düzgün ailədə böyüməyən, düzgün ata və ana sevgisi görməyən, daim evdə problemli bir vəziyyətdə olan qızların 80 faiz etibarilə aqibəti bu tip olur. Amma, hamısında bu itkin düşmək və ya qaçmaq kimi olmaya bilər".

Psixoloq Vüsalə Əmiraslanova: "Ümumiyyətlə, itkin düşən insanlarla bağlı araşdırmaya görə çoxu olur ki, məsələn, psixoloji problemləri, psixiatrik problemləri olub evdən gedənlər var. Yəni, səbəbləri müxtəlifdir.

Elə insanlar da var ki, reallığı qəbul edə bilmirlər, ümumiyyətlə, real həyat onlara ağır gəlir, harasa getmək, bir müddət dincəlmək istəyirlər. Yəni, belə hallar da ola bilir. Ondan əlavə oğurluq halları olur, insan alverinin qurbanı ola bilirlər. Amma çox nadir hallarda başını götürüb gedənlər olur. Çünki, əgər onun psixikası yerindədirsə, psixoloji bir problemi də yoxdursa o bir məsuliyyət daşıyır, özü öz xoşuna itkin düşə bilməz. Bəlkə də müəyyən müddətdir dincəlmək, rahatlıq istəyir. O zaman kimsə tərəfindən oğurlanır və yaxud da gizlədilir. Belə şeylər ola bilir. Amma əksər vaxt yəni, psixiatrik problemi olanlarda itkin düşmə halları çox olur. Bu alkoqolizmlə məşğul olanlar, narkotik istifadəçilərində, bir də insan alverinin qurbanı olanlarda çox olur".

**Ayşən Vəli**

***Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan Parisdə işgüzar səfərdə olarkən Fransanın "Fiqaro" qəzetinə verdiyi müsahibədə öz ölkəsinin maraqlarından çıxış edərək bir çox sualları iddialarından da yüksək cavablandırıb. Mirzoyanın Türkiyənin regionda artan rolu, ATƏT-in Minsk Qrupunun himayəsi altında danışıqların bərpası, YUNESKO-nun Dağlıq Qarabağa humanitar məqsədlərlə daxil olması, Ermənistan ərazilərindən keçəcək Zəngəzur dəhlizi barədə öz çapından artıq iddialı danışması bu ölkənin 44 günlük müharibədə aldığı zərbədən hələ də ayılmadığına bir işarədir.***

ANALİZ

# Zəngəzurda toqquşan maraqlar

## *Fransanın 2,4 milyardı, İran qazı, Rusyanın dəhliz marağı, Naxçıvana açılan qapı və...*



Azərbaycanın Şərqi Zəngəzur bölgəsi ilə Naxçıvanı birləşdirən Zəngəzur dəhlizi barədə A.Mirzoyanın dedikləri nəinki dövlət rəsmisinin, heç adi vətəndaşın düşüncəsinə uyğun gəlməyən mövqedir. O, dəhlizin ümumiyyətlə, müzakirə mövzusu olmadığını iddia edib. Halbuki, Rusiya və Azərbaycan prezidentləri və Ermənistanın baş naziri arasında noyabrın 10-da imzalanan üçtərəfli bəyanatın bir bəndi də kommünikasiya xətlərinin, o cümlədən Zəngəzur dəhlizinin açılması barədədir. Erməni xislətindən doğan yanaşmanı bir kənara qoyaraq deyə bilərik ki, Zəngəzur dəhlizinin olmayacağı, yaxud yazılmayacağı sənədin növbəti bəndində də Ermənistan rəsmiləri və vətəndaşları ”Laçın dəhlizi də yoxdur” ifadəsni oxuya bilərlər.

Maraqlı bir mənzərə yaranır, rəsmi sənədlərdə kommünikasiya xəttlərinin açılması barədə ağ vərəq üzərində qara hərflərlə qeydlər yazılır. Bu bəyanatdan bir il keçəndən sonra isə münaqişədə məğlub olmuş tərəf - Ermənistan özünə sərf edən variantın mövcudluğundan danışır, əksinə özünə sərf etməyən digər bəndləri inkar edir. Bunu necə başa düşək? Ermənistan bu addımı ilə hansı problemlərlə üzləşəcəyinin fərqindədirmi? Normal cəmiyyətlər, ölkələr bu addımı atmaq istəməzlər, amma Ermənistan kimi həm Avropanın, həm də Rusiyanın ”for-post”u olan marionet ölkədən hər bir addımı gözləmək olar.

Bəs rəsmi İrəvanın qulağına bu həvəsə düşməyi kim pıçıldayıb, yaxun Ermənistana bu cəsarəti kim verib? Rusiya, Fransa və ABŞ-ın həmsədrlik etdiyi ATƏT-in Minsk qrupu 30 il ərzində beynəlxalq qanunlara istinadən münaqişəni həll etmək, Ermənistana yerini göstərmək istəmədilər, işğalçılığın sonunun pis olacağını, işğal zamanı azərbaycanlılara qarşı həyata keçirdikləri vandallığın, soyqırımının, insanlığa qarşı vəhşiliyin bədəlinin ağır olacağını bu barbar millətin yadına salmağı düşünmədilər. Əslində bu hərəkətləri ilə Minsk qrupunun həmsədr ölkələri həm öz beynəlxalq nüfuzlarının heçə endirdilər, həm də erməni qardaşlarını bütün regionun xalqları ilə düşmən etdilər. Ermənistanın Türkiyəyə, Azərbaycana, Gürcüstana qarşı ərazi iddialarından maksimum yararlanmağa çalışan Qərb və Rusiya bu ölkənin düşəcəyi dərin quyunun artıq qazıldığını ona xatırlatmaq istəmədilər, əksinə gizlətməyə çalışdılar.

İnanırıq ki, Ermənistanın İran, Avropa və Rusiyanın iqtisadi maraqlarının qurbanı olduğunu kimsə nə yazıb, nə də yada salıb. Əslində Ermənistan da bunun belə olmadığına özünü daim inandırmağa çalışıb. Fakt isə budur ki, Ermənistan düşdüyü ağır durumdan qurtulmaq üçün çabaladıqca özünü ona dost göstərən dövlətlər onu bir az da dərinə itələyiblər, çalışıblar ki, İrəvan onlardan daha çox asılı vəziyyətə düşsün. Gələk əsas mətləbə...

44 günlük müharibədən qalib çıxan Azərbaycan Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında dağıdılan infrastrukturu bərpa etməklə yanaşı Naxçıvanla yerüstü əlaqələri həm avtomobil, həm də dəmiryolu xəttini bərpa etmək üçün geniş layihələr həyata keçirmək niyyətində və əzmində olduğunu ortaya qoydu. Zəngəzur dəhlizi adlanan bu layihənin həyata keçirmək Azərbaycanın haqqıdır. Bundan heç kimin şübhəsi olmasın. Hadisələrin gedişi də göstərir ki, bu meqalayihələrdən narahat olan və buna əks gedən dövlətlər və beynəlxalq güclər də az deyil. Necə deyərlər, həmin mərkəzlərin maraqları bu dəfə Zəngəzurda toqquşur. Bir qüvvə dəhlizin açılmasında, digəri isə, əksinə layihənin həyata keçməməsində maraqlıdır.

Qoca Avropa həmişə olduğu kimi Rusiyanı zəiflətmək, hətta SSRİ kimi ayrı-ayrı subyektlərə parçalamaq və sahiblənmək kimi plana sahibdir. Əlbəttə, bu o qədər də asan məsələ deyil. Amma mümkünsüz də deyil. Rusiya da bu planı bilir və buna qarşı çeşidli tədbirlər görür. 10 il bundan əvvəl Rusiya Avropa Birliyinin əsas qaz tədarükçüsü idi. Bir sözlə, qaz monopoliyası Rusiyanın ”Qazprom”una məxsus idi. Avropa Birliyi bundan narahat olsa da, vəziyyəti dəyişməyə çalışsa da, sonda yenə üzünü Rusiyaya tutmalı olurdu. Yaxın Şərq ölkələrinə ümid bağlamaq isə sadəcə, ağılsızlıq olardı.

Və nəhayət Avropa Birliyi Rusiyadan qaz asılılığını azaltmaq qərarına gəldi, öncə qiymətlərin ucuzlaşdırmağı tələb etdi, bu mümkün olmadıqca Ukraynadan keçən tranzit qaz xəttini əngəlləmək üçün iki ölkə arasında münaqişə yaratdı. Plan ”uğurla” həyata keçsə də, sonda udan tərəf yenə Rusiya oldu. Qazın qiyməti Avropada 140 dollardan 2000 dollara qədər bahalaşdı. Avropa qaz böhranı ilə baş-başa qaldı. ”Şimal axını-2” qaz xəttinin də Rusiyanın Avropaya qarşı yeni tələsi olduğunu hər kəs bilir. Ukraynadan keçən Urenqoy-Ujqorod qaz xəttinə qarşı Avropa Birliyinin təxribatı əksinə, Rusiyanın Türkiyə üzərindən keçən ”Cənub axını”nın reallaşmasınü sürətləndirdi. Beləliklə, Rusiya-Türkiyə iqtisadi tərəfdaşlığı yarandı. Bu isə Avropa Birliyinin yeni planlar üzərində işləməyə vadar etdi. Ehtiyat və son variant kimi İran dövrəyə gətirildi...

Ermənistan Rusiyanın ”for-post”u, Cənubi Qafqazdakı ən böyük hərbi bazasının olduğu yeganə ölkədir. Bu ölkəni itirmək Rusiyaya Cənubi Qafqazı itirməyə bərabərdir. Qeyd edək ki, Rusiyanın Ermənistanla quru sərhəddi də yoxdur, yalnız hava nəqliyyatı vasitəsilə yüklərin daşınması isə çox baha başa gəlir. Bəs nə etməli? Rusiya Avropa Birliyinin onun iqtisadi marşrutlarına yaratdığı əngəllər Cənubi Qafqazdan, daha doğrusu Azərbaycandan keçən dəmiryolu xəttini aktuallaşdırdı. Amma Azərbaycanın bu əraziləri Ermənistanın işğalı altında qaldıqca Rusiyanın bu planı baş tutan deyildi. Belə olan halda Rusiya əlini Ermənistanın kürəyindən çəkməli, Azərbaycana ərazi bütövlüyünü bərpa etməyə mane olmamalı idi. Yalnız bundan sonra Rusiyanın da istifadə edəcəyi və yüklərini Ermənistana daha ucuz qiymətə daşıya biləcəyi dəmiryolu xəttinin bir az da uzağa - Naxçıvana, oradan isə Türkiyəyə qədər uzanması təmin oluna bilərdi. Reallıq budur ki, Azərbaycan öz hərbi gücü hesabına BMT-nin 30 ildə edə bilmədiyini 44 gündə həll etdi. İndi növbədə Zəngəzur dəhlizidir...

Görünən budur ki, Rusiya dəhlizin açılmasından təkcə Ermənistana yük daşımağı düşünmür, həm də alt qatda olan maraqlarını təmin etməyi planlayır. Bəs bu planlar nədir? Bu məqsədlərdən biri və birincisi Fransanın Rusiyanı Avropanın qaz bazarından vurub çıxarmaq üçün İranı dövrəyə soxmaq istəyidir. Bunun üçün də hələ Tramp ABŞ prezidenti olarkən Fransa prezidenti Makronla görüşünü yada salmaq gərəkdir. Yadınızdadırsa, Tramp İrana qarşı sanksiyaların bir qismini aradan qaldırmışdı. Bunu da Fransaya sərf edən şərtlərlə. Yəni sanksiyalar müvəqqəti aradan qalxandan sonra İranın Avropa banklarında olan milyardların bir hissəsi Tehranın əlinə keçdi, desək düzgün olmaz. Çünki, həmin milyardar birbaşa Fransanın hesabına köçürüldü, ”Airbus”ların alınmasına, İranın təyyarə parklarının yenilənməsinə. Fransanın bu ”jest”indən yararlanan İran isə uzun illər saksiya ucbatından anbarlarda yığılıb qalan ucuz qazını Avropa bazarına çatdırmağı düşünürdü.

Bir az əvvələ gedək. İran qazını Avropaya çatdırmaq üçün Fransanın təkidi ilə bir çox variantlar, əməliyyatlar düşünülmüşdü, yollar axtarılmışdı. İki yoldan birincisi, İraq-Suriya-Aralıq dənizi-Avropa marşrutu idi. İkinci yol isə Türkiyədən keçə bilərdi. Bu isə Fransanı qane etmədiyindən rəsmən boykot edildi. Qaldı İraq-Suriya yolu. Bu marşrutun tikintisi planlaşdırılan dönəmdə Suriyada və İraqda ”ərəb baharı” baş verdi, daha doğrusu işə salındı. Məqsəd hər iki dövləti zəiflədib onların ərazilərindən az xərclə kəmərlərin çəkilməsi idi. Amma Hafiz Əsədin dönəmindən Suriyada mövcudluğunu qoruyan Rusiya bu plana qarşı çıxdı. Fransa PKK və özünün yaratdığı İŞİD-ə yardımlarını artırsa da bu terrorçi qruplar Fransanın arzularını gerçəkləşdirə bilmədilər.

Növbəti marşrut isə Fransanın ortaya atdığı yeni - İran-Ermənistan-Gürcüstan-Qara dəniz- Bolqarıstan-Yunanıstan marşrutudur. Fransanın Avropa Birliyi adından Ermənistana 2,4 milyard avro maliyyə vəsaiti ayırmasının səbəblərini də elə burada axtarmaq lazımdır. İran Fransanın dəstəyi ilə hələ mövcudluğu sual altında olan qaz kəməri barədə planlar qurur. Təbii ki, bunu İranın maraqlarından yozsaq qeyri-adi heç nə yoxdur. Uzun illər saksiyalarla başbaşa qalan ölkə iqtisadi tənəzzüldən qurtulmaq istəyir. Amma bunu qonşusunun itkiləri üzərindən etməyə qalxan hər bir dövlət bunun bədəlini ödəməyi də gözə almalıdır. Rusiya bu mənada İranın qarşısında duran ən böyük maneədir. Rusiya Zəngəzur dəhlizini açmaqla Ermənistana ucuz nəqliyyat xətti əldə etməkdən çox, onu Avropanın qaz bazarından vurub çıxarmaq istəyənlərə meydan oxuyur. Yəni Avropa bazarını menyüdən çıxarmaq hələ tezdir, İran özünə başqa bazar axtarsın.

Məsələ burasındadır ki, Zəngəzur dəhlizindən hərə öz çapında qazanacaq. Əsas odur ki, Azərbaycan bir çox beynəlxalq güclərin maraqlarının toqquşduğu dəhlizdə qazanan tərəf olsun.

**V.VƏLİYEV**

***Noyabrın 24-də Milli Məclisin sədri Sahibə Qafarovanın sədrliyi ilə büdcə zərfinin ikinci oxunuşda müzakirə olunduğu parlamentin plenar iclası hökumət üzvlərinin iştirakı ilə işini davam etdirib. Belə ki, iclasda müzakirə edilən qanun layihələrinə ikinci oxunuşun prosedur qaydalarına uyğun surətdə baxılıb. Məsələlər barədə təqdimatlar dinlənildikdən sonra həmin qanun layihələrinin müzakirə olunduğu digər komitələrin də rəyi öyrənilib.***

# Milli Məclisdən mühüm qərarlar: 2022-ci il üçün yaşayış minimumu haqqında” qanun layihəsi qəbul edilib



Gündəlikdəki 4-cü məsələ - ”Azərbaycan Respublikasında 2022-ci il üçün yaşayış minimumu haqqında” qanun layihəsi (ikinci oxunuş) barədə məlumat verən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, 2022-ci il üçün yaşayış minimumunun ölkə üzrə 196 manatdan 210 manata, əmək qabiliyyətli əhali üçün 207 manatdan 220 manata, pensiyaçılar üçün 162 manatdan 176 manata, uşaqlar üçün 175 manatdan 193 manata qaldırılması nəzərdə tutulur.

Müzakirə zamanı deputat Etibar Əliyev qanun layihəsinə dair rəyini və təkliflərini diqqətə çatdırıb. İclasda ”Azərbaycan Respublikasında 2022-ci il üçün yaşayış minimumu haqqında” qanun layihəsi səsə qoyulub və ikinci oxunuşda qəbul edilib.

Milli Məclisdə ”Azərbaycan Respublikasında 2022-ci il üçün ehtiyac meyarının həddi haqqında” qanun layihəsini (ikinci oxunuş) Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev təqdim edib. Bildirib ki, 2022-ci ildə ehtiyac meyarı 200 manat məbləğində müəyyən olunub. Bu, cari ildəkinə nisbətən 30 manat və ya 17,6 faiz artım deməkdir. Təqdimatdan sonra ehtiyac meyarının həddi haqqında qanun layihəsi ikinci oxunuşda dəstəklənib.

Plenar iclasda büdcə zərfindəki növbəti qanun layihəsini şərh edən İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili bildirib ki, Vergi Məcəlləsinə təklif olunan dəyişiklik (ikinci oxunuş) vergi inzibatçılığının təkmilləşdirilməsi məqsədi daşıyır. Məlumat verib ki, bu qanun layihəsinin birinci oxunuşda müzakirəsi zamanı deputatların irəli sürdükləri təkliflər müvafiq qurumlarla birlikdə baxılıb, təkliflərin əksəriyyəti müvafiq qaydada nəzərə alınıb və hazırkı layihədə öz əksini tapıb.






Komitə sədri həmin dəyişikliklər barədə parlamentə ətraflı məlumat verdikdən sonra müzakirələr başlanıb. Deputatlar Eldar Quliyevin və Siyavuş Novruzovun fikirləri dinlənilib. Məsələ səsə qoyulub və ”Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında” qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

”İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında” (ikinci oxunuş) qanun layihəsini təqdim edən Milli Məclis sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli bildirib ki, gündəliyin növbəti 10 məsələsi Vergi Məcəlləsində edilən dəyişikliyə uyğunlaşdırma xarakteri daşıyır, İnzibati Xətalar Məcəlləsində isə həmin dəyişiklikdən irəli gələn inzibati məsuliyyət nəzərdə tutulur.

Deputatlar İnzibati Xətalar Məcəlləsindəki bu dəyişikliyə ikinci oxunuşda müsbət münasibət bildiriblər.

İclasda ”Yerli (bələdiyyə) vergilər və ödənişlər haqqında” qanun layihəsi barədə komitə sədri Tahir Mirkişilinin məlumatı dinlənilib. Müzakirələrdə deputatlar Razi Nurullayev, Siyavuş Novruzov, Kamran Bayramov, Fazil Mustafa və Hikmət Məmmədov rəy və təkliflərini bildiriblər.

Milli Məclis sədrinin birinci müavini Əli Hüseynli çıxışlarda səslənən bəzi təkliflərlə əlaqədar arayış verib. Qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Sonra gündəlikdəki növbəti məsələni təqdim edən Milli Məclisin sədrinin müavini, komitə sədri Əli Hüseynli nəzərə çatdırıb ki, ”Vəkillər və vəkillik fəaliyyəti haqqında” Qanunda dəyişiklik edilməsi barədə layihə vəkillik fəaliyyəti üzrə vergitutma məsələsini dəqiqləşdirir. Birinci oxunuş zamanı deputatlar da bu sənədi pozitiv layihə kimi dəyərləndiriblər. İclasda deputat Bəhruz Məhərrəmovun layihəyə dair təklifləri dinlənilib. Parlament bu qanun layihəsini ikinci oxunuşda dəstəkləyib.

Milli Məclisdə ”Sosial sığorta haqqında”, ”İcra haqqında”, ”Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında”, ”Dövlət satınalmaları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə komitə sədrləri Musa Quliyev, Əli Hüseynli və Tahir Mirkişilinin təqdimatları dinlənilib. Qanun layihələri ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Sonra ”Nağdsız hesablaşmalar haqqında” Qanunda dəyişiklik edilməsi barədə məlumat verən komitə sədri Tahir Mirkişili bildirib ki, dəyişiklik qanunun 3.4-cü maddəsinə 5 yeni maddənin əlavə olunması ilə əlaqədardır. Birinci oxunuş zamanı deputat Qüdrət Həsənquliyevin həmin maddələrə dair iradları nəzərə alınıb və qanuna yeni redaksiya verilib. Deputatlara təqdim olunmuş yeni layihədə həmin məsələ öz əksini tapıb.





Parlament səsvermə zamanı bu qanunu da ikinci oxunuşda dəstəkləyib.

İclasda "Dövlət rüsumu haqqında" Qanunda dəyişiklik edilməsinə dair layihənin təqdimatından sonra deputat Sabir Rüstəmxanlının fikirləri dinlənilib. Səsvermə zamanı qanun layihəsi ikinci oxunuşda razılıqla qarşılanıb.

Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanov "Azərbaycan Respublikasının Su Məcəlləsində, Azərbaycan Respublikasının Gömrük Məcəlləsində, Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Yerin təki haqqında", "Balıqçılıq haqqında", "Heyvanlar aləmi haqqında", "Ətraf mühitin mühafizəsi haqqında", "Ovçuluq haqqında", "Daşınmaz əmlakın dövlət reyestri haqqında", "Baytarlıq haqqında", "Dərman vasitələri haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Mədəniyyət haqqında", "Ölçmələrin vəhdətinin təmin edilməsi haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" qanun layihəsini təqdim edib. Layihə ikinci oxunuşda qəbul olunub.

Milli Məclisdə "Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunda dəyişiklik edilməsi barədə məsələni şərh edən Milli Məclisin sədrinin müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin



sədri Əli Hüseynli bildirib ki, bu və gündəlikdəki növbəti 5 qanun layihəsi sığorta məsələlərinə həsr olunub. Qanun layihələri faktiki olaraq deputatların, hərbçilərin, hakimlərin, hüquq-mühafizə orqanları işçilərinin, diplomatların dövlət icbari şəxsi sığorta məsələlərinin təkmilləşdirilməsi ilə bağlıdır.

"Azərbaycan Respublikası Milli Məclisi deputatının statusu haqqında" Qanunda dəyişiklik edilməsi barədə" qanun layihəsi parlamentdə ikinci oxunuşda qəbul olunub.

İclasda "Hərbi qulluqçuların dövlət icbari şəxsi sığortası haqqında" Qanunda edilən dəyişiklikdən danışan Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Ziyafət Əsgərov bildirib ki, əsas məqsəd hərbi qulluqçuların sosial müdafiəsinin daha da gücləndirilməsidir. Təqdimatdan sonra layihə ikinci oxunuşda qəbul edilib.

Deputatlar "Məhkəmə və hüquq-mühafizə orqanları işçilərinin dövlət icbari şəxsi sığortası haqqında" və "Sığorta fəaliyyəti haqqında" qanunlarda, həmçinin "Azərbaycan Respublikasının 2001-ci il 12 iyun tarixli 141-IIQ nömrəli Qanunu ilə təsdiq edilmiş "Dövlət vergi orqanlarında xidmət haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə qanun layihələrinə də ikinci oxunuşda müsbət münasibət bildiriblər.

Plenar iclasda "Azərbaycan Respublikasının xarici ölkələrdə və beynəlxalq təşkilatlarda fəaliyyət göstərən diplomatik nümayəndəliklərində qulluq edən şəxslərin icbari sığortası haqqında" Qanuna dəyişiklik edilməsi barədə Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədr müavini Sevinc Fətəliyeva məlumat verib.

Müzakirədə qanun layihəsinə münasibət bildirən Regional məsələlər komitəsinin sədri Siyavuş Novruzov diplomatların icbari şəxsi sığortasının vacibliyindən danışıb, 44 günlük Vətən müharibəsindən sonra onların öhdəsinə çox böyük vəzifələr düşdüyünü qeyd edib, xarici ölkələrdə Azərbaycanın milli maraqlarının qorunması sahəsində operativ fəallıq göstərmələrinin, Milli Məclis deputatları ilə sıx əməkdaşlıq etmələrinin zərurətini vurğulayıb.

Çıxışa münasibət bildirən Milli Məclisin sədri Sahibə Qafarova qeyd edib ki, hazırda Milli Məclis ilə Xarici İşlər Nazirliyi arasında mütəmadi əlaqələr var və sıx əməkdaşlıq şəraitində ciddi iş aparılır. Fikir mübadiləsinin yekunlarında sözügedən qanun layihəsi ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin sədri Sahibə Qafarova bildirib ki, gündəlikdəki "Azərbaycan Respublikası Milli Məclisinin 2022-ci il üçün xərclər smetası haqqında" və "Azərbaycan Respublikası Hesablama Palatasının 2022-ci il üçün xərclər smetası haqqında" məsələlər barədə birinci oxunuş zamanı ətraflı məlumat verilib. Həmin qanun layihələri növbəti iclasda "Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsi haqqında qanun layihəsi ilə birlikdə səsə qoyulacaq.

Bununla da Milli Məclis gündəlikdəki qanun layihələrinin ikinci oxunuşda müzakirəsini başa çatdırıb.

# "Bu ərazidə bircə nəfər də olsun rus yaşamırdı"

## SİYASİ ŞƏRHÇİ MÖVQE BİLDİRDİ



***"Etnik erməni azlığının yaşadığı Azərbaycan ərazilərində müvəqqəti missiya həyata keçirən Rusiya sülhməramlılarının aqressiv, silahlı separatizm meyllərinə və digər cinayət xarakterli əməllərin səbəblərinə aydınlıq gətirərkən, bir məqamı xüsusi olaraq nəzərə almaq lazımdır.***

Rusiya sülhməramlılarının Azərbaycan ərazilərində yaşayan etnik ermənilərə münasibətdə bəzən qıcıq doğuran, bəzən isə ikrah hissi yaradan davranışlarının səbəblərini bu ökənin çar dövründən etibarən, milli azlıqlar vasitəsilə yürütdüyü siyasətdə axtarmaq lazımdır. Rusiya dövlət kimi formalaşdığı və imperiyaya çevrildiyi ilk günlərdən başqa ölkələrin ərazisində yaşayan etnik azlıqları öz tərəfinə çəkməklə, həmin azlıqların yaşadığı dövlətlərin siyasi hakimiyyətləri üzərində təsir imkanlarını qoruyub saxlamağa çalışıb". Bunu SİA-ya açıqlamasında siyasi şərhçi Elçin Mirzəbəyli deyib.

Elçin Mirzəbəyli bu barədə fikirlərini belə izah edib: " Bu proses SSRİ dönəmində, sözügedən dövlətin ideoloji prinsipləri də nəzərə alınmaqla, daha qabarıq şəkildə həyata keçirilib. Rusiya bir çox dövlətlər və imperiyalar kimi, öz qəsbkarlıq və assimilyasiya siyasətini "kiçik xalqların müdafiəsi" üzərində qurub və daha çox sistemli, tədrici, məxməri assimilyasiyaya üstünlük verib. Bu yanaşma ən müxtəlif dövrlərdə türk xalqlarının tarixi torpaqlarının qəsb edilməsi prosesində də özünü nümayiş etdirib. Bununla bağlı bir nümunə gətirim: XVII əsrin əvvəllərinə indiki Xakasiya ərazisi işğal olunduğu dövrdə, bu ərazidə bircə nəfər də olsun rus yaşamırdı. Hazırda isə Xakasiya əhalisinin 80,3 faizini ruslar təşkil edir. Xakasların isə əhəmiyyətli hissəsi dillərini unudublar, rus adları və soyadları daşıyırlar, hətta dinlərini, milli mənsubiyyətlərini belə dəyişiblər. Qeyd edim ki, Xaksiya ərazisi Rusiyanın tərkibinə qatılanadək, xakasların əhəmiyyətli hissəsi Tanrıçı idi, kiçik bir hissə isə buddizmin lamaizm cərəyanına aid idilər. Amma indi xakasların, demək olar ki, 90%-i xristian dininin provoslav qanadının təmsilçiləridir.

Təəssüf ki, Rusiyanın ekspansionist siyasətinin aparıcı xəttini təşkil edən etnik azlıqları separatizmə meyllendirməklə onlardan milli dövlətlərə təsir etmək ənənəsi hələ də yeni, daha modern və daha sivil texnologiyalarla əvəzlənməyib.

Rusiya sülhməramlılarının Azərbaycan ərazilərində yaşayan ermənilərə münasibəti də məhz bu siyasətdən qaynaqlanır və onlar bu davranışları ilə özlərini etnik ermənilərə "xilaskar" kimi təqdim etməyə, "əgər biz olmasaq, azərbaycanlılar sizi məhv edər" iddiası ilə çıxış etməyə çalışırlar. Halbuki, Azərbaycan ərazilərində yaşayan etnik ermənilər separatizm meyllərindən əl çəkərlərsə və Azərbaycan vətəndaşı kimi davranarlarsa, daha üstün bir həyat tərzi keçirə, öz mədəniyyətlərini, dillərini inkişaf etdirə, təhlükəsiz həyatlarını təmin edə bilərlər".

***Turqay Musayev***

# Fuat Oktay: "Qarabağla bağlı layihələr müzakirə olunur"

***Burada İslam Əməkdaşlıq Təşkilatı (İƏT), xüsusilə İƏT-in İqtisadi və Ticarət Məsələləri üzrə Daimi Komitəsinə üzv ölkələr arasında ticarətin inkişaf etdirilməsi, sərmayələrə təkan verilməsi ilə əlaqədar manеələrin aradan qaldırılması, həm də yeni fürsətlərin yaradılması ilə bağlı çox ciddi layihələr müzakirə olunur. Qarabağ da müzakirə olunan mövzular sırasındadır.***

AZƏRTAC xəbər verir ki, bu fikirləri Türkiyənin vitse-prezidenti Fuat Oktay İslam Əməkdaşlıq Təşkilatının İqtisadi və Ticarət Məsələləri üzrə Daimi Komitəsinin 37-ci Nazirlər Toplantısı zamanı jurnalistlərə açıqlamasında deyib.

Nəzərdə tutulan layihələr haqqında danışan Fuat Oktay deyib: "Müşahidə Mərkəzi də bu layihələrdən biridir. İslami dəyərlər adlanan yeni bir indeksimiz var ki, bu da çox ciddi sərmayə fürsətləri yaradacaq. Halal qida, əmlak və qızıl birjaları da layihələrimizə daxildir. Bir çox vasitələrin inkişafı nəzərdə tutulur. Bunun bütün üzv ölkələrin xeyrinə olacağına və əməkdaşlıqların inkişafı baxımından səmərəli nəticə verəcəyinə inanırıq".



# Soçi görüşünə ümidlər böyükdür

***"Ermənistan baş naziri Nikol Paşinyanın danışıqlar masasına gətirilməsi Azərbaycan dövlətinin qətiyyətli və prinsipial siyasətinin nəticəsidir". Bu sözləri SİA-ya açıqlamasında politoloq Ceyhun Əhmədli deyib.***



O, qeyd edib ki, Paşinyan növbəti dəfə regiondakı reallıqları qəbul etməyə məcbur qaldı. ”Ermənistan rəhbərliyi başa düşdü ki, Azərbaycanı hərbi ritorika ilə hədələmək onlara heç nə qazandıra bilməz. Əksinə, bu kimi təxribatlar onsuzda uğursuzluq girdabında çabalayan Ermənistan üçün daha böyük faciələr gətirə bilər. Xüsusən sərhədyanı ərazilərdə törədilən son hərbi təxribatlar Ermənistanın acizliyini, Azərbaycanın isə gücünü və iradəsini növbəti dəfə nümayiş etdirdi. Beləliklə, artıq Ermənistanın danışıqlara cəlb olunmaqdan başqa bir çarəsi yoxdur. İrəvanın üçtərəfli bəyanatın imzalanmasının ildönümü ilə əlaqədar Soçidə keçiriləcək görüşə müsbət cavab verməsi bu aspektdən qiymətləndirilməlidir. Azərbaycan Ermənistanı məcbur etdi ki, danışıqlara getsin və Azərbaycanın şərtlərini qəbul etsin. Bildiyimiz kimi, görüş Rusiyanın vasitəçiliyi ilə baş tutacaq. Bu isə öz növbəsində 10 noyabr bəyanatında yer alan müddəaların yerinə yetirilməsinə, o cümlədən kommunikasiyaların açılması və sərhədlərin delimitasiya və demarkasiyası ilə bağlı sürəcə əlavə impuls verəcək. Bu görüşdə də diktə edən tərəf Azərbaycandır. Azərbaycan Prezidenti qalib xalqın lideri kimi Soçiyə yollanır.

Ümumiyyətlə, Soçi görüşünü ötən il imzalanan kaputulasiya aktının davamı kimi xarakterizə edə bilərik. Soçi görüşünə ümidlər böyükdür. Çünki nəzərə alaq ki, 15 dekabr tarixində Brüsseldə Avropa İttifaqının vasitəçiliyi ilə növbəti görüşün keçiriləcəyi nəzərdə tutulub. Moskva maksimum çalışacaq ki, Soçidə əhəmiyyətli siyasi qərarlar qəbul olunsun və Brüssel görüşü Soçi danışıqlarının kölgəsində qalsın. Bu mənada istisna deyil ki, kommunikasiyaların işlək vəziyyətə gətirilməsi və sərhədlərin müəyyən edilməsi ilə bağlı mühüm razılıq əldə olunacaq. Nəzərə alaq ki, 11 yanvar tarixində keçirilən görüşdə nəqliyyat və iqtisadiyyat əlaqələrinin açılması istiqamətində fəaliyyəti həyata keçirmək üçün baş nazirlərin müavinləri səviyyəsində xüsusi İşçi Qrup yaradılmışdı. Və ötən dövr ərzində bu qrup çərçivəsində dəfələrlə görüş və müzakirələr təşkil olunub. Əgər ali səviyyəli üçtərəfli görüş keçirilirsə, deməli, İşçi Qrup qeyd olunan istiqamətlər üzrə fəaliyyətini uğurla yekunlaşdıra bilmişdir”.

***Rüqəyyə Orucova***



# Ermənistan minalanmış ərazilərin xəritəsini nəyə görə vermir?

Mina xəritələrinin verilməməsi məsələsi son müharibədən sonra ən aktual mövzulardan biridir. Burada ilk səbəb odur ki, Ermənistan bilir ki, Azərbaycanda müharibədən sonra Qarabağda saxlanılan terroristlər var. Paşinyan xəritələri ona görə vermir ki, məhz o terroristləri geri qaytarmaq istəyir”. Bu sözləri SİA-ya açıqlamasında politoloq Asif Nərimanlı




deyib.

O, qeyd edib ki, bu terroristlər Azərbaycan qanunvericiliyinə görə, mühakimə olunaraq saxlanılır. ”Ermənistan tərəfi bu xəritələri saxlamaqla Azərbaycanla bazarlıq vasitəsi kimi istifadə edir. Lakin o da istisna deyil ki, Ermənistanın siyasi və hərbi rəhbərləri arasında bu xəritə mövzusu ilə bağlı fikir ayrılığı var. Çünki, onlar bilirlər ki, Paşinyan orada hakimiyyətə tam nəzarət edə bilmir. Rəsmi İrəvanda da bu xəritələrin tam dəqiqliyi yoxdur. Orduda hər hansı bir qüvvələr bu xəritələri gizlədir, vermək istəmirlər, bu onlarda bir qədər daxili problemdir. Əslində Azərbaycan tərəfi erməni terroristlərini Azərbaycan qanunvericiliyinə görə mühakimə edib. Lakin o da istisna deyil ki, rəsmi Bakı erməni terroristlərdən həm də siyasi nəticələri əldə etmək üçün istifadə edə bilər və bu təbii bir haldır. Yəni bütün müharibələrdən sonra qarşı tərəfdən saxlanılan şəxslərdən bu cür bazarlıqlarda istifadə edilir. Məsələ nəyə görə bu vaxta qədər uzanır? Çünki, Ermənistan tərəfi 2 və ya 3 dəfə xəritə dəyişimi edib və bu xəritələrin heç biri tam dəqiq



olmayıb. Azərbaycan tərəfi artıq tələbini elə formada qoyub ki, konkret minaların basdırıldığı ərazilərin xəritəsini tələb edir. Çünki, qeyd etdiyimiz kimi indiyə qədər verilən xəritələrin maksimum 50%-i doğru olub, qalanı isə yanlış göstərilib. Bu baxımdan artıq Azərbaycan tərəfi tələbini dəyişdirib. Ermənistan tərəfini çətinliyə salan səbəblərdən biri də bu tələbin dəyişdirilməsi ola bilər. Bu proses də Ermənistanın əlehinə işləyir və onlar da bunu anlayırlar”.



***Rüqəyyə Orucova***

# Kimə inanaq, Paşinyana, yoxsa Poqosyana?

***Noyabrın 26-da Soçidə gözlənilən Paşinyan-Əliyev görüşü barədə Ermənistanda həm dövlət, həm də qeyri-dövlət qurumlarında, o cümlədən siyasi ekspertlər arasında fərqli fikirlər dolaşır. Yəni, bu görüşə ehtiyac var idimi, Ermənistanın bu görüşdən çıxarı nə olacaq? Bəziləri bu görüşü Rusiya prezidenti Putinin xüsusi olaraq təşkil etdiyini düşünür, amma...***

”Bu görüşü dekabrın 15-də Brüsseldə keçirilməsi nəzərdə tutulan görüşə qarşı qoymaq olmaz. Bu görüşlər bir-birinin əhəmiyyətini azaltmaq, yaxud artırmaq üçün nəzərdə tutulmayıb. Əksinə, bu görüşlərin biri o birinə əlavə üstünlük gətirmək üçün də keçirilmir. Məncə, noyabrın 26-da keçiriləcək görüş elə noyabrın 8-12-də onlayn keçirilməli olan görüşdür. Bu görüş hazırlanırdı, ondan əvvəl intensiv danışıqlar, mətnlərin hazırlanması prosesi gedirdi. Çox güman ki, son anda Ermənistan nümayəndə heyəti onlayn görüşün təxirə salınmasını və ya ləğv edilməsini xahiş edib”, - deyə politoloq Beniamin Poqosyan deyib.



Poqosyanın dediyindən belə çıxır ki, noyabrın 26-da keçiriləcək görüş sadəcə olaraq, noyabrın 9-12-nə əvvəlcədən hazırlanmış və planlaşdırılan, lakin müəyyən səbəblərdən təxirə salınan görüşdür. Dekabrın 26-da Brüsseldə Paşinyan-Əliyev görüşünə gəlincə, politoloq qeyd edib ki, bu, iki ölkə başçılarının Şərq Tərəfdaşlığı sammitində iştirak edəcəyini nəzərə alaraq, avropalıların təşəbbüsüdür.

Ermənistanın baş naziri Nikol Paşinyan isə fərqli düşünür. Baş nazir noyabrın 9-da keçirilməsi nəzərdə tutulan, lakin təxirə salınan görüşün keçirilməməsi səbəbini izah edərkən bildirib ki, hərbi əsirlərin qaytarılması ilə bağlı qərarın olmaması səbəbindən Rusiya və Azərbaycan prezidentləri Vladimir Putin və İlham Əliyevlə videokonfrans vasitəsilə üçtərəfli görüşdən imtina edib: ”Bəli, noyabrın 9-da onlayn görüş keçirmək ideyası var idi, dedim ki, bu ideya problemlidir, çünki noyabrın 9-u bizim üçün ağır gündür. Amma mən dedim ki, konkret qərarların qəbul ediləcəyi, məsələn, erməni hərbi əsirlərin qaytarılacağı ilə bağlı müzakirə olacaqsa görüşə razıyam. Amma bu görüşdə belə bir razılığın əldə oluna bilməyəcəyi məlum olanda görüşün noyabrın 15-nə qədər təxirə salınmasını xahiş etdim. Sonra görüşün noyabrın 26-na və şəxsən təxirə salınması təklifi oldu, mən bununla razılaşdım”.

İndi hansına inanaq, Paşinyana, yoxsa Poqosyana? Poqosyan bu görüşün Brüssel görüşündən əvvəl Rusiya tərəfinin təşəbbüsü ilə keçirilmədiyini və ”texniki səbəblərdən” təxirə salınmış görüşün davamı kimi təqdim etməyə çalışır. Paşinyan isə noyabrın 9-12-si arasında keçirilməli olan onlayn görüşün keçirilməməsinin səbəblərini sırf özünün təşəbbüsünə (əsirlər məsələsi) bağlayaraq bu faktdan da divident qazanmağa çalışır. Amma fakt budur ki, Rusiya prezidenti Ermənistanla Azərbaycan arasında başlanmış kövrək dialoq təşəbbüsünə avropalıları şərik etmək istəmir. Avropalıların isə fürsətdən yararlanaraq iki ölkə arasında bundan sonra baş tutacaq təmaslarda moderatorluq etmək istəyirlər.

# Xızıda YAP-ın yaranmasının 29-cu il dönümünə həsr olunmuş konfrans keçirilib





*Tədbir iştirakçıları öncə müasir müstəqil Azərbaycanın memarı və qurucusu, YAP-ın yaradıcısı, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, abidəsi önünə gül dəstələri düzüblər.*

Daha sonar Xızı şəhər ərazisindəki Şəhidlər abidəsi kompleksinə gələn partiya üzvləri tərəfindən Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsinə ehtiram ifadə ediliblər.

Tədbiri giriş sözü ilə açan YAP Xızı rayon təşkilatının sədri Fərrux Haverdiyev qonaqları salamlayaraq Yeni Azərbaycan Partiyasının yaranmasının 29 illiyi münasibətilə partiyanın təmsilçilərini təbrik edib. Fərrux Haqverdiyev qeyd edib ki, Yeni Azərbaycan Partiyası möhtəşəm bir güc mərkəzi kimi Azərbaycanın siyasi həyatında aparıcı yer alır.

Tədbirdə YAP Xızı rayon təşkilatının fəalları Bəhdaş Nəbiyev, İman Ağayev, Fazil Məmmədov çıxış edərək bildiriblər ki, tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası böyük inkişaf yolu keçərək cəmiyyətin ən aparıcı qüvvəsinə çevrilmişdir. Partiyanın böyük nüfuza malik olması onun yaradıcısı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Nəinki ölkənin, eləcə də bölgənin aparıcı siyasi qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının sıralarının günbəgün artması Heydər Əliyev ideyalarına sədaqətin, həyata keçirilən siyasətin gələcəyinə inamın göstəricisidir.

***Rəfiqə***

# Şəhid Elbrus Süleymanovun xatirəsinə ucaldılmış abidə-bulaq kompleksinin açılışı olub





***Oğuz rayon Bucaq kəndində I Qarabağ müharibəsi zamanı Qubadlı rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Oğuz rayon şəhidi Süleymanov Elbrus Süleyman oğlunun xatirəsinə ucaldılmış abidə-bulaq kompleksinin açılış mərasimi keçirilib.***

Şəhid ailələri, rayon rəsmiləri və ictimaiyyət nümayəndələri, YAP Oğuz rayon təşkilatının əməkdaşları, məktəblilərin iştirakı ilə keçirilən tədbirdə Bucaq kənd məktəbinin direktoru Svetlana Rustəmova, şəhidin döyüş yoldaşı, kənd ağsaqqalı, YAP Oğuz rayon təşkilatının əməkdaşı Elşən Alcansoy, Oğuz rayon icra hakimiyyətinin nümayəndəsi Vasif İsgəndərov çıxış edərək, şəhidimizin əziz xatirəsini ehtiramla yad ediblər, tədbirin məqsəd və əhəmiyyətindən danışıblar.

***ZÜMRÜD BAYRAMOVA***

# Quba rayonunda şəhid Mehdi Murtuzovun xatirəsi anılıb



**YAP** Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov və partiya fəalları tərəfindən torpaqlarımızın azadlığı uğrunda canından keçərək, şəhadətə yüksəlmiş Quba rayonunun Alpan kəndindən olan qəhrəman vətən oğlu Murtuzov Mehdi Muxtar oğlunun ildönümü ilə əlaqədar ailəsi və Alpan kəndinin "Su-baba" məzarlığında məzarı ziyarət olunub, əziz xatirəsi ehtiramla anılıb. Xatırladaq ki, Şəhidimiz cəbhənin Murovdağ-Kəlbəcər-Ağdağ istiqamətində gedən döyüşlərdə şücaət göstərərək, şəhid olub. Lakin onun nəşini döyüş bölgəsindən çıxarmaq mümkün olmamış və itkin düşməsi barədə məlumat verilmişdi. Bir müddətdən sonra döyüş yoldaşları Mehdinin nəşini aşkarlamış və 2020-ci il noyabrın 23-də götürməyə nail olmuşdu. Mehdi şəhadətindən 52 gün sonra, noyabrın 24-ü doğma Alpan kəndinin "Su-baba" məzarlığında torpağa tapşırılıb.



Murtuzov Mehdi Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov bildirib ki, Azərbaycan dövləti şəhidlərimizin xatirəsini həmişə uca tutur. Şəhidlərimiz Vətənimizin işğaldan azad olunmuş torpaqları uğrunda öz qanından, canından keçərək Şəhidlik zirvəsinə ucalıblar. Y.Abidov şəhid ailəsinin problemləri ilə maraqlanıb və ailəsinə səbr diləyib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Xızıda YAP-ın yaranmasının 29-cu il dönümünə həsr olunmuş konfrans keçirilib





*Tədbir iştirakçıları öncə müasir müstəqil Azərbaycanın memarı və qurucusu, YAP-ın yaradıcısı, xalqımızın ümummilli lideri Heydər Əliyevin xatirəsini yad edib, abidəsi önünə gül dəstələri düzüblər.*

Daha sonar Xızı şəhər ərazisindəki Şəhidlər abidəsi kompleksinə gələn partiya üzvləri tərəfindən Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda mübarizədə canlarından keçən qəhrəman Vətən övladlarının xatirəsinə ehtiram ifadə ediliblər.

Tədbiri giriş sözü ilə açan YAP Xızı rayon təşkilatının sədri Fərrux Haverdiyev qonaqları salamlayaraq Yeni Azərbaycan Partiyasının yaranmasının 29 illiyi münasibətilə partiyanın təmsilçilərini təbrik edib. Fərrux Haqverdiyev qeyd edib ki, Yeni Azərbaycan Partiyası möhtəşəm bir güc mərkəzi kimi Azərbaycanın siyasi həyatında aparıcı yer alır.

Tədbirdə YAP Xızı rayon təşkilatının fəalları Bəhdaş Nəbiyev, İman Ağayev, Fazil Məmmədov çıxış edərək bildiriblər ki, tarixi zərurətdən yaranan Yeni Azərbaycan Partiyası böyük inkişaf yolu keçərək cəmiyyətin ən aparıcı qüvvəsinə çevrilmişdir. Partiyanın böyük nüfuza malik olması onun yaradıcısı ulu öndərimiz Heydər Əliyevin adı ilə bağlıdır. Nəinki ölkənin, eləcə də bölgənin aparıcı siyasi qüvvəsinə çevrilən Yeni Azərbaycan Partiyasının sıralarının günbəgün artması Heydər Əliyev ideyalarına sədaqətin, həyata keçirilən siyasətin gələcəyinə inamın göstəricisidir.

***Rəfiqə***

# Şəhid Elbrus Süleymanovun xatirəsinə ucaldılmış abidə-bulaq kompleksinin açılışı olub







***Oğuz rayon Bucaq kəndində I Qarabağ müharibəsi zamanı Qubadlı rayonunun müdafiəsi uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuş Oğuz rayon şəhidi Süleymanov Elbrus Süleyman oğlunun xatirəsinə ucaldılmış abidə-bulaq kompleksinin açılış mərasimi keçirilib.***

Şəhid ailələri, rayon rəsmiləri və ictimaiyyət nümayəndələri, YAP Oğuz rayon təşkilatının əməkdaşları, məktəblilərin iştirakı ilə keçirilən tədbirdə Bucaq kənd məktəbinin direktoru Svetlana Rustəmova, şəhidin döyüş yoldaşı, kənd ağsaqqalı, YAP Oğuz rayon təşkilatının əməkdaşı Elşən Alcansoy, Oğuz rayon icra hakimiyyətinin nümayəndəsi Vasif İsgəndərov çıxış edərək, şəhidimizin əziz xatirəsini ehtiramla yad ediblər, tədbirin məqsəd və əhəmiyyətindən danışıblar.

***ZÜMRÜD BAYRAMOVA***

# Quba rayonunda şəhid Mehdi Murtuzovun xatirəsi anılıb



**YAP** Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov və partiya fəalları tərəfindən torpaqlarımızın azadlığı uğrunda canından keçərək, şəhadətə yüksəlmiş Quba rayonunun Alpan kəndindən olan qəhrəman vətən oğlu Murtuzov Mehdi Muxtar oğlunun ildönümü ilə əlaqədar ailəsi və Alpan kəndinin "Su-baba" məzarlığında məzarı ziyarət olunub, əziz xatirəsi ehtiramla anılıb. Xatırladaq ki, Şəhidimiz cəbhənin Murovdağ-Kəlbəcər-Ağdağ istiqamətində gedən döyüşlərdə şücaət göstərərək, şəhid olub. Lakin onun nəşini döyüş bölgəsindən çıxarmaq mümkün olmamış və itkin düşməsi barədə məlumat verilmişdi. Bir müddətdən sonra döyüş yoldaşları Mehdinin nəşini aşkarlamış və 2020-ci il noyabrın 23-də götürməyə nail olmuşdu. Mehdi şəhadətindən 52 gün sonra, noyabrın 24-ü doğma Alpan kəndinin "Su-baba" məzarlığında torpağa tapşırılıb.



Murtuzov Mehdi Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə ölümündən sonra "Vətən uğrunda", "İgidliyə görə", "Kəlbəcərin azad olunmasına görə" medalları ilə təltif olunub.

YAP Quba rayon təşkilatı sədrinin səlahiyyətlərini icra edən Yusif Abidov bildirib ki, Azərbaycan dövləti şəhidlərimizin xatirəsini həmişə uca tutur. Şəhidlərimiz Vətənimizin işğaldan azad olunmuş torpaqları uğrunda öz qanından, canından keçərək Şəhidlik zirvəsinə ucalıblar. Y.Abidov şəhid ailəsinin problemləri ilə maraqlanıb və ailəsinə səbr diləyib.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Fransa burnunu hansı işlərə dürtməməlidir?



*Və ya Paris bu kimi fəaliyyətlərini kənara qoyub Cənubi Qafqazdakı yeni reallıqları qəbul etməlidir!*






***Rusiya sülhməramlı kontingentinin (RSK) müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərindəki separatçı-quldur rejim "nümayəndələrinin" Fransaya səfər ediblər. Saxta "ərazi və infrastrukturun idarə edilməsi naziri" Hayk Xanumyan və dırnaqarası "spiker" Artur Tovmasyanı böyük bacı adlandırdıqları Fransanın senatında Respublikaçılar fraksiyasının rəhbəri, Valans şəhərinin meri, Qrenobl şəhərinin rəsmiləri və digər rəsmi şəxslər qəbul ediblər.***

Onlar noyabrın 15-dən 19-na qədər Fransada səfərdə olublar. Əlbəttə, həmin səfər Fransadan hansısa rəsmi instansiyanın dəvəti ilə deyil, yenə də qondarma "Fransa-Artsax dostluq dərnəyi" adlı qrupun dəvəti əsasında baş tutub. Əvvəlcə, noyabrın 15-də Fransanın Aix-Marseille-Provence Metropoliyasının rəhbəri Martine Vassale, noyabrın 17-də Fransanın Milli Assambleyasındakı həmin qondarma "dərnəyin" rəhbəri François Pupponi ilə görüşüblər. Görüşdə deputatlar Florence Provendier və İsabelle Santiaqo da iştirak ediblər.

### Beynəlxalq aləmdə tanınmayan bir qurumun nümayəndələrini rəsmi şəkildə qəbul etməyin arxasında hansı maraqlar dayanır?

Yenə də noyabrın 17-də Xanumyan və Tovmasyan Alfortville şəhərinin meriyasında mer Luc Carvounas ilə görüşüblər, ertəsi gün isə onları Fransa Senatında Respublikaçılar qrupunun rəhbəri, senator Bruno Retailleau qəbul edib. Noyabrın 19-da isə Xankəndindən getmiş separatçıları Valense şəhərinin meri Nikolas Daraqon qəbul edib. Görüşdə həmçinin Bourg-Les-Valence şəhərinin meri Marlene Mourier, Valence şəhəri merinin 1-ci müavini Veronique Pugeat və Montelimar şəhəri merinin 1-ci müavini Marie-Christine Magnanon iştirak ediblər. Həmin gün Xanumyanla Tovmasyanı Fransanın İsere Departamentinin rəhbəri Jean-Pierre Barbier də qəbul edib.

Təbii ki, ilk növbədə ağla gələn fakt və sual budur ki, Fransa ATƏT-in Minsk qrupunun həmsədr ölkələrindən biridir və belə olan halda beynəlxalq aləmdə tanınmayan bir qurumun nümayəndələrini rəsmi şəkildə qəbul etməyin arxasında hansı maraqlar dayanır? Əlbəttə ki, ilk növbədə, riyakarlıq və beynəlxalq hüquqa qarşı çıxmaq maraqları, eləcə də aşkar ermənipərəstlik reallığı.

### Qarabağ münaqişəsinin başlanğıc siqnalı da 1987-ci ildə Fransadan verilmişdi

Unutmamalıyıq ki, əslində, Qarabağ münaqişəsinin başlanğıc siqnalı da 1987-ci ildə Fransadan verilmişdi. Erməni akademiki Aqanbeqyanın məhz bu ölkənin mətbuatında Azərbaycanın Qarabağ regionunun ayrılaraq Ermənistana birləşdirilməsi "ideyası" Paris qəzetlərində tirajlanmışdı. Və əgər sonrakı illərdəki proseslərdə də Fransanın çoxsaylı bənzər davranışlarını da buraya əlavə edərsək, üstəlik, 44 günlük İkinci Qarabağ müharibəsində Fransa prezidenti Emmanuel Makronun siyasi artistizm xarakterli bəyanatlarını da xatırlayarsaq, bu zaman nəyin necə olduğunu rahatlıqla təsəvvürümüzdə canlandıra bilərik. Ümumiyyətlə, qarşılıqlı qanunsuz səfərlər daim olub və fransız senatorlarının da dəfələrlə Qarabağa gedərək separatçılara mənəvi, maddi və s. yardımlar göstəriblər. Həmçinin, onlar Qarabağda "Fransa-Erməni məktəbləri" və missionerlik fəaliyyətləri qurublar. Bu da son deyil. Belə ki, Fransa həm də o ölkələrdəndir ki, ATƏT-in Minsk qrupunun üzvü olmasına rəğmən, Fransa parlamentində qondarma "dqr"in tanınması ilə bağlı müzakirələr və dinləmələr də baş tutub.

### Milli Məclisdən sərt və haqlı ittihamlar!

Qeyd edək ki, Milli Məclisin iclasında da bu məsələ sərt etirazlar doğurub. Deputat Qüdrət Həsənquliyev Milli Məclisin plenar iclasında Fransa Senatında senatorların erməni separatçılarını qəbul etməsinə etirazını bildirib. "Niyə Dnestryanı, Cənubi Osetiya, Abxaziyadan olan separatçıları qəbul etmirsiniz? Ləyaqət davası edən ölkə bu cür ləyaqətsizliyi özünə necə sığışdırır?", - deputat sual edib.

Onun sözlərinə görə, Fransa 44 günlük savaşda minlərlə gəncin tökülən qanına görə məsuliyyət daşıyır: "Fransa Minsk Qrupunun üzvü kimi açıq-aşkar Ermənistana, işğalçı dövlətə dəstək olur. Fransa bu hərəkəti ilə bölgəyə sülhün gəlməsini əngəlləyir. Azərbaycan Fransanın Minsk Qrupu həmsədrliyindən kənarlaşdırılmasına çalışmalıdır. Mən hər cür təhqirin və zorakılığın əleyhinəyəm. Sadəcə, baş verənlər Fransanın yürütdüyü siyasətin nəticəsidir. Ermənilərə müsbət münasibəti olan bu ölkənin Azərbaycana münasibəti heç vaxt dəyişməyəcək. Azərbaycan bütün sahələrdə Fransa ilə münasibətlərinə yenidən baxmalıdır".

Deputat Fazil Mustafa da Fransanın erməni separatçılarına qucaq açmasına kəskin etirazını bildirib. "ATƏT-in Minsk Qrupunu rədd etmək üçün" real imkan yarandığını deyən deputat bildirdi ki, bundan yaxşı fürsət ola bilməz.

Eyni zamanda, F.Mustafa qeyd etdi ki, Qarabağ separatçıları ilə bağlı müvafiq araşdırmalar aparılmalı, onların barəsində cinayət işi qaldırılmalı, terrorçu kimi axtarışı təmin olunmalıdır: "Həmçinin, hansı ölkə onları qəbul edirsə, həmin ölkə ilə terrorçuları qəbul edən ölkə kimi davranmaq lazımdır".

Deputat Tural Gəncəliyev Fransa Senatında erməni separatçıların qəbul edilməsini kəskin qınayıb: "Son vaxtlar Fransanın xarici siyasətində ciddi səhvlər formalaşır. Bu cür hərəkətlər Fransa-Azərbaycan münasibətlərinə fayda gətirməyəcək. Bundan sonra Fransa Xarici İşlər Nazirliyi Cənubi Qafqaz və Azərbaycanla bağlı məsələrdə ehtiyatlı olmalıdır. Əks halda, bu, xeyir gətirməyəcək".

Daha sonra deputatlar Aydın Mirzəzadə, Hikmət Məmmədov və digərləri də Fransanın ermənipərəst siyasətinə qarşı mövqe bildiriblər.

Beləliklə, bir daha sübut olunub ki, bütövlükdə ATƏT-in Minsk qrupu yararsız bir quruma çevrilməsi ilə yanaşı, həm də Fransa kimi ikiüzlü bir dövlətin davranışları bu reallığı daha da artırır, ikili standart faktorunu yenidən ortaya atır. Belə olan halda Azərbaycanın sərt və haqlı mövqe bildirməsi isə ədalətli yanaşma kimi qiymətləndirilməlidir və Paris də əlbəttə ki, bu kimi fəaliyyətlərini kənara qoyub Cənubi Qafqazdakı yeni reallıqları qəbul etməlidir. Etmirsə, bu zaman kənara çəkilməli və bir daha Azərbaycanın daxili işlərinə və ərazilərinə burnunu dürtməməlidir!

**Rövşən RƏSULOV**

## Müxalifəti ortalığa salıb oynadanlar anti-Azərbaycan qüvvələrdir"

"AXCP-nin, yaxud "Milli Şura"nın dövlətçilik əleyhinə qərəzli fikirlər səsləndirməsi gözlənilməz deyil. Çünki onların nə dünyada gedən prosesləri, nə də regionda baş verənləri təhlil etmək, mənsub olduqları məmləkət üçün nəyin xeyirli, nəyin zərərli olduğunu müəyyənləşdirmək imkanları sıfıra bərabərdir. Birincisi ona görə ki, buna onların siyasi savadları çatmır. İkincisi isə, onların siyasi savadları çatsa belə, ağaları buna imkan verməz". "Azadlıq Hərəkatçıları" Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib.

MÜSAVAT

T.Novruzov bildirdi ki, müxalifəti toy toğlusu kimi ortalığa salıb oynadanlar anti-Azərbaycan qüvvələrdir: "Daha dəqiq desək, ermənipərəst güclərdir ki, bu, artıq hər kəsə məlumdur. Müxalif qüvvələrdən maliyyələşən kəslərin nə ixtiyarları var ki, məhz onların təyin etdikləri siyasi doktrinadan qırağa çıxsınlar? Belə də ailələrinin paltarını, yeməyini, özlərinin restoranlarda kef-damaq xərclərini haradan ala bilərlər? Bu gün regionda yaranmış durumda Azərbaycan doğru olaraq hərbi-siyasi taktikaya üstünlük verir. Məqamı gələndə düşmənin həmlələrinin qarşısı qətiyyətlə alınmalıdır, alınır da. Necə yəni, məğlub düşmən bizə əzələ nümayiş etdirsin, qalib tərəf olan biz buna seyrçiliklə yanaşaq? Bu, hansı məntiqə söykənir? Belə məntiqsizliyin isə arxasında duran qüvvələr var və onlar məcbur edirlər ki, belə danışsınlar. 1992-ci ilin yayını xatırladım. Bizim ordu cəbhə boyu irəliləyən vaxtlarda Ermənistan parlamentinin 60-dan çox üzvü Azərbaycana müraciət etmişdi ki, hərbi əməliyyatlar dayandırılsın, Qarabağ Azərbaycanın tərkibində qalmaq şərti ilə danışıqlara başlanılsın. O zaman ermənilərin həmin müraciəti nəinki icra olunmadı, heç baxılmadı da. İndi hərb istəməyən bu adamlar o zaman hakimiyyətdə idilər. Nədən o müraciətə baxılmadı? Cavabı da məlumdur, çünki o zaman həmin anti-Azərbaycan qüvvələr regionda münaqişənin artmasında, hərbi əməliyyatların genişlənməsində maraqlı idilər, göstəriş də buna uyğun verilmişdi. Məncə hər bir siyasətçi danışdığını yüz ölçüb, bir biçməli, sonra danışmalıdır. Özün iqtidarda olanda nümayiş etdirdiyin mövqe hərbə üstünlük verməK idisə, indi müxalifət olub özünü qərbdəki ağalarına "sülhpərvər" kimi təqdim etmək, ən azı Azərbaycanın mövqelərinə zərbə vurmağa cəhd deməkdir".

**Gülyana**

***Ermənistanın baş naziri Nikol Paşinyanın noyabrın 23-də onlayn mətbuat-konfransında irəli sürdüyü fikirləri və demək olar ki, hər fikrində Azərbaycana qarşı növbəti sərsəm ittihamlarını səsləndirməsi bir sıra nəticələrə gəlməyə kifayət qədər zəmin yaradır. Hətta belə desək, onun hər bir səsrəm fikrinə birbaşa və arqumentli cavablar mövcuddur. Elə isə gəlin Nikolun fikirlərinə diqqət yetirək və onlara cavabları verək.***

# Xuliqan Nikolun sərsəmləmələri

## *Yaxud, erməni baş naziri yenə yuxular görməyə başlayıb*



### İrəvan Azərbaycanın ayrılmaz, suveren tərkib hissəsi olan Qarabağla bağlı absurd, sərsəm iddialar irəli sürəcəksə, yalnız özünə siyasi məzar qazmalı olacaq

Beləliklə, ermənilərin "varçapeti" iddia edib ki, Azərbaycanın Ermənistana qarşı davranışları davamlı aqressiya üzərində qurulub və Bakının özünü belə aparması İrəvanın diplomatik araşdırmalarının əsas predmetlərindən biri olmalıdır. Lakin (!)

Lakin Azərbaycanı aqressiyada və dövlət sərhədlərini pozmaqda ittiham etmək üçün ilk növbədə bilmək və sual etmək lazımdır ki, axı bu sərhədlər haradan başlayır? Yəni sərhədlərdə delimitasiya işləri aparılmayıbsa, demək, burada "sizin ərazi-niz, bizim ərazimiz" məsələsindən danışmağa dəyməz. Və yalnız sərhədlərin delimitasiyası və demarkasiyasından sonra aşkar etmək olar ki, kim-kimin torpaqlarını işğala məruz qoyur!

Rəsmi Bakıya gələndə isə, Azərbaycan hər kəsdən əvvəl sərhədlərin delimitasiya olunmasını istəyir və nə qədər ki, İrəvan Azərbaycanın ayrılmaz, suveren tərkib hissəsi olan Qarabağla bağlı absurd, sərsəm iddialar irəli sürəcəksə, yalnız özünə siyasi məzar qazmalı olacaq. Çünki Ermənistanın hələ də "status" məsələsində iki ayağını bir başmağa dirəməsi, ərazi iddiaları ilə çıxış etməsi istənilən delimitasiyanı mənasız edir.

Keçək digər iddiaya. Nikol Paşinyan deyir: "İndi soruşurlar ki, Ermənistan-Azərbaycan sərhədlərinin delimitasiya və demarkasiya sənədi nədən bəhs edir? Sənəd ondan bəhs edir ki, biz bu prosesi başlamışıq. Bu məsələlər müzakirə olunur".

Nikolun sözlərindən belə çıxış ki, "prosesin başlanması" o deməkdir ki, həmin "proses" daha 30 il davam edəcək? Bu baxımdan, özünün "ağıllı" sərsəmləmələrini ortaya atıb baş qarışdırmağa cəhd edən erməni baş naziri bilməlidir ki, "prosesin başlanılmaması" ilə bağlı deyil, delimitasiyanın çərçivə prinsiplərini həyata keçirmək, bu prosesin özünü sürətləndirmək lazımdır. Əks halda, Bakının bundan sonraya heç bir səbri qalmayıb və qala da bilməz!

### İrəvan başa düşməlidir ki, Ermənistan SSR-nin şərqdəki "millimetrinə qədər dəqiq" sərhədi Azərbaycan SSR-nin qərbindəki millimetrinə qədər dəqiq olan sərhədidir

Nikol Paşinyan deyir ki, çoxsaylı xəritələri var. Ancaq anlamaq lazımdır ki, xəritələr sadəcə şəkillərdir, bunun üçün isə hüquqi əsaslar lazımdır. Onun sözlərinə görə, kimsə hər dəfə deyəndə ki, xəritə əsasında göstərilən mövcud ərazi Ermənistanın hüdudlarında yerləşir, onu hörmətlə görüşə dəvət edir, əgər varsa, hüquqi əsasların təqdim olunması istənilir. "Bugünkü gündə biz Ermənistan SSR-nin sərhədlərinin haradan keçdiyini millimetrinə qədər bilirik. Eləcə də bu əsaslarla biz bəyan edirik ki, Azərbaycan təcavüzkardır və Ermənistanın suveren ərazisində yerləşib. Ermənistandan danışarkən biz hər hansı amorf düşüncələrə son qoymalıyıq. Biz anlamalıyıq ki, Ermənistan millimetrlərinə qədər dəqiq sərhədləri olan ölkədir", ermənilərin baş naziri deyib.

Yaxşı, əgər belədirsə, bu halda İrəvan başa düşməlidir ki, Ermənistan SSR-nin şərqdəki "millimetrinə qədər dəqiq" sərhədi Azərbaycan SSR-nin qərbindəki millimetrinə qədər dəqiq olan sərhədidir və o cümlədən, sərhədin Laçının girişindəki 5 kilometrlik Azərbaycan hissəsidir. İrəvan isə bu hissəni "erməni dəhlizi", ya da "erməni-artsax" keçidi kimi deyil, Ermənistan-Azərbaycan sərhədləri kimi tanımalıdır.

Eyni zamanda, Azərbaycanı publik şəkildə "Ermənistanın suveren ərazilərinə daxil olmuş aqressor" adlandıran siyasətçi, məhz publik şəkildə də izah etməlidir ki, Ermənistan Azərbaycanın suveren ərazisi hesab edilən anklavlarda nə gəzir? Axı bu ərazilərin millimetrlərinə qədər Azərbaycana məxsusluğu gün kimi hər kəsə aydındır!

### Bakının Qərbi Zəngəzurun, Dərələyəzin və Şərqi Göyçənin Azərbaycandan qopardılaraq Ermənistan SSR-yə birləşdirilməsi ilə bağlı iddia edilən "hüquqi əsaslara" nəhəng şübhələri var!

Özünü "ağıllı diplomat" hesab edən Paşinyan anklavlar məsələsində deyir: "Beləliklə, Azərbaycan danışıqlara anklavlar məsələsini daşımaq istəyir, mən bu barədə demişəm. Ancaq bizim özümüz anlamalıyıq ki, xəritədə göstərilən bu anklavlar hüquqi əsaslara söykənir, yoxsa hansısa kolxozun sədri hər hansı bayram şərəfinə ərazini Azərbaycandakı qardaş kolxoza hədiyyə edib? Xəritələri açmaqla qabağa qaçaraq bu barədə danışmaq istəmirəm, amma xəritələrdə göstərilən bu anklavların hüquqi əsaslarının olmasına çox böyük şübhələrə malikik".

Yenə də ermənilərin "ağıllı varçapetinə" veriləcək suallar yaranır: Yaxşı, bəs onda Ermənistan SSR-nin "millimetrlərinə" qədər dəqiq olan sərhədləri haradadır? Niyə söhbət anklav məsələsinə gələndə birdən-birə hüquqi əsaslara "böyük şübhələr" yaranmağa başlandı?

Və belə yerdə Bakının Qərbi Zəngəzurun, Dərələyəzin və Şərqi Göyçənin Azərbaycandan qopardılaraq sovetləşdirilməyə yenicə başlayan Ermənistan SSR-yə birləşdirilməsi ilə bağlı iddia edilən "hüquqi əsaslara" nəhəng şübhələri var! Torpaqların verilməsində hansı "hüquqi baza" mövcuddur? Misal üçün, bizə məlumdur ki, 1929-cu ildə Azərbaycan KP (b) MK-nın rəhbəri Levon Mirzoyan olarkən, yəni bir erməni (!!!) Azərbaycan torpaqlarını Ermənistan SSR-yə peşkəş edib. Hanı buradakı "hüquqi əsaslar"? Yoxdur əlbəttə ki!

### Azərbaycan 30 il süni şəkildə uzadılan danışıqlar prosesini yaxşı xatırlayır və 44 günlük müharibə prosesin ölü nöqtədən tərpənməsinə şərait yaratmış oldu

Nikol Paşinyan deyir ki, qlobal mənada yollarla bağlı həll oluna bilinməyən problemlərlə qarşılaşmırlar. Lakin onun "Biz özümüz həll edəcəyimiz yol problemlərinə malikik. Biz sadəcə istəyirik ki, bizi beynəlxalq ictimaiyyət, həm də azərbaycanlı ictimaiyyəti eşitsin: biz həll yollarını tapmaq istəyirik, biz bunlara getməyə hazırıq, amma kimsə məcbur etmək cəhdləri göstərərsə, heç bir həll yolu qəbul edilməyəcək. Biz qarşılıqlı hörmət əsasında həll yollarına hazırıq" deməsi, bir daha növbəti əsaslı cavabları ortaya çıxarmış olur.

Məsələ ondadır ki, İrəvanın hansısa "məcburiyyətə" uğramaması üçün sözügedən prosesdə irəliləyişlər, tərəqqilər olmalıdır və əgər İrəvan sadəcə boşboğazlıqları ilə və mənasızlıqla həmin prosesin dondurulmasına çalışacaqsa - Azərbaycan 30 il süni şəkildə uzadılan danışıqlar prosesini yaxşı xatırlayır və 44 günlük müharibə prosesin ölü nöqtədən tərpənməsinə şərait yaratmış oldu. O cümlədən, Bakının kimləri isə nəyəsə məcbur etməyə marağı da yoxdur, amma bu, o demək deyil ki, İrəvan yenidən istədiyi kimi prosesi uzadacaq, əslə belə olmayacaq! İrəvan çox qısa müddətdə Bakının, eləcə də üçtərəfli bəyanatdakı şərtlərin icra olunmasına başlayacaq və buna da məcburdur!

### Xuliqanlıq edən Nikol Paşinyanın özüdür və belə davranışlarına görə cəzasını alıb, davam edərsə, yenə də alacaq

Ermənistanın baş naziri onu da iddia edir ki, irimiqyaslı toqquşmaların səbəbi Azərbaycan SQ-nin lokal şəkildə toplaşması ilə bağlı deyil, sən demə, Azərbaycanın "aqressiv siyasəti" ilə əlaqəliymiş (?!) Və sən demə İrəvanın siyasəti ondan ibarətimiş ki, beynəlxalq ictimaiyyət Azərbaycanın sözügedən siyasətini dayandırsın. Yəni Paşinyan iddia edir ki, 44 günlük müharibədən sonra Azərbaycan daha sərt siyasət aparır və İrəvan bu siyasəti Bakıya qarşı istifadə etməliymiş. "Hər gün dəhliz barədə bəyanatların verilməsi, Ermənistanın ərazilərinə olan iddiaları beynəlxalq xuliqanlığa bənzəməyə başlayır. Və biz bu xuliqanlığı beynəlxalq ictimaiyyətə göstərməliyik və bu barədə iştirak edəcəyim Demokratiya sammitində danışacağam", deyə ermənilərin sərsəm "varçapeti", sözün əsl mənasında, axmaqlayıb.

Əslinə qalanda isə, beynəlxalq ictimaiyyətin proseslərə cəlb edilməsinə ehtiyac olmayacaq əgər: İrəvan xoşməramlı qaydada üçtərəfli bəyanatda əks olunan bəndlərə riayət edərsə. Çünki sülh sazişindən və mehriban qonşuluq münasibətlərindən yaxşı təhlükəsizlik zəmanəti yoxdur.

Fəqət, Nikolun "xuliqan-işğalçı" iddialarını irəli sürməsi isə məhz beynəlxalq ictimaiyyət tərəfindən gülüş, istehza hədəfinə çevrilə bilər. 44 günlük müharibədə kimin xuliqan, kiminsə haqq mübarizə apardığını beynəlxalq ictimaiyyət yaxşı bildi və dərk etdi. Bu baxımdan, xuliqanlıq edən Nikol Paşinyanın özüdür və belə davranışlarına görə cəzasını alıb, davam edərsə yenə də alacaq. Bax, buna şübhə etməsin -nə özü, nə də beynəlxalq ictimaiyyət.

### Öz ölkəsində bir dənə də olsun azərbaycanlı, türk olmayan bir dövlətin başçısı başqa ölkələrin onun ölkəsinə qarşı "soyqırımı törətmək planlarının" olması iddiasını hansı üzlə, hansı mənəviyyatla iddia edə bilər?

Nikol Paşinyan mətbuat-konfransı zamanı Azərbaycan və Türkiyə ilə bağlı da sərsəmləməyi unutmayıb. O deyib ki, Ermənistan Türkiyə ilə münasibətləri yoluna qoymaq istəyindədir. Ancaq sonradan sual edib ki, hər iki dövlət Ermənistanı məhv etmək istəyirmi? Bu kimi gülünc, erməni şakərinə uyğun "məzlumluğuna" isə əlbəttə ki, gülmək qalır. Çünki o, "genosiddən" danışa-danışa, həm də öz təbirincə "barmaq silkələyir" və deyir ki, əgər Azərbaycanla Türkiyə Ermənistanı məhv etmək istəyirlərsə, Ermənistanın buna qarşılıq verməkdən başqa çarəsi qalmır (?!).

Ancaq bu sərsəm "varçapet" bilməlidir ki, həm Azərbaycan, həm də Türkiyə Ermənistana yalnız sülh təklif edə bilər və bunu edirlər də. Bunun üçün isə sülh sazişini imzalamaq, sərhədlərin delimitasiyasını aparmaq, kommunikasiyaları gərəkdir! Və Paşinyan bu yandan "genosid" iddiasını irəli sürürsə, burada kimin sülh, kimin isə qeyri-sülh tərəfdarı olduğu açıq-aydın görünür. Bu adamın ölkələrimizə qarşı belə bir ittihamlar irəli sürməsi, guya Ermənistana "yeni soyqırımı yaşatmaq planlarının" olmasını iddia etməsi axmaqlıq və absurduqdur! Sual olunur: "baron" Paşinyan, Ermənistanda neçə azərbaycanlı və türk davamlı olaraq yaşayır və bu ölkənin vətəndaşlıq pasportuna malikdir? Halbuki, Türkiyədə bir milyona yaxın erməni yaşayır, təhsil alır, işləyir, hətta ən yüksək vəzifələrdə təmsil olunurlar. Azərbaycanda da nə qədər ermənının yaşaması barədə danılmaz statistik məlumatlar mövcuddur. Eləcə də Azərbaycan Qarabağ ermənilərini öz vətəndaşları hesab edir və yalnız bir şərtlə çıxış edir ki, onlar Azərbaycan Respublikasının Konstitusiyasını tanımalı, buna sədaqət andı içməlidirlər. Yəni öz ölkəsində bir dənə də olsun azərbaycanlı, türk olmayan bir dövlətin başçısı başqa ölkələrin onun ölkəsinə qarşı "soyqırımı törətmək planlarının" olması iddiasını hansı üzlə, hansı mənəviyyatla iddia edə bilər?

Yaxşı olardı ki, özünü "ağıllı" göstərməyə cəhd edən, yuxular görən Nikol Paşinyan bu suallara cavablar axtarsın və prosesi uzatmasın. Çünki Bakının səbri, həqiqətən də, tükənib!

***Rövşən RƏSULOV***

***İrəvan Ermənistan-Türkiyə münasibətlərinin normallaşması üçün vasitəçilik tələbi ilə Moskvaya müraciət edib. Bu barədə Azatutyun radiosuna müsahibəsində Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi Vaan Hunanyan bildirib. "Bir sıra beynəlxalq tərəfdaşlar, o cümlədən Rusiya, Ermənistan-Türkiyə münasibətlərinin normallaşması prosesinə kömək etməyə hazır olduqlarını bəyan ediblər. Və biz Rusiyaya bildirdik ki, biz ilkin şərt olmadan Ermənistan-Türkiyə normallaşması prosesinə başlamağa hazırıq",- Hunanyan bildirib.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "İctimai və dövlət maraqlarının müdafiəsi" istiqaməti çərçivəsində hazırlanıb.***

# Ermənistan-Türkiyə münasibətləri Azərbaycanın maraqları kontekstində

Ermənistan Türkiyə ilə münasibətlərin bərpası Azərbaycanın maraqlarına uyğundurmu? Münasibətlərin normallaşması perspektivi necədir? Və əsas odur ki, İrəvanın ilkin şərt olmadan Ermənistan-Türkiyə normallaşması prosesinə başlamağa hazır olduğunu deməsi, Ermənistan tərəfinin Türkiyəyə qarşı ərazi iddialarından və "soyqırım" mifindən əl çəkəcəyini düşünməyə əsas verirmi? Ekspertlər "Caliber" analitik mərkəzinə bu mövzu ilə bağlı fikirlərini bildiriblər.

**Rusiyalı şərqşünas alim, Yeni Türkiyə Araşdırmaları Mərkəzinin direktoru Yuri Mavaşev:**

-Erməni-türk ziddiyyətləri probleminin həllinin açarları başqa yerdə deyil, İrəvandadır. Türkiyə Rusiyanın küreyi arxasında dayanmır və bu, heç vaxt da olmayıb. Normallaşma kateqoriyasını necə başa düşmək hələ aydın deyil. Amma açığını deyim ki, bu, yalnız nisbətən normal şəraitdə və ya ən azı hər iki tərəfin hər şeyi normal başa düşmək əsasında dialoq qurmaq istəyi ilə mümkündür.

Ermənistan hakimiyyəti öz suverenliyini, daha doğrusu, ondan nəyi qaldığını aydınlaşdırmayınca İrəvanın təşəbbüslərini heç kim ciddi qəbul etməyəcək. Kreml də daxil olmaqla.

Erməni tərəfi bu gün Rusiyanı qara formada şantaj edir- gah KTMT vasitəsilə ona qəbul olunmuş prosedur çərçivədən kənar müraciət edir, gah da 2020-ci ilin noyabrında özünün imzaladığı üçtərəfli bəyanatı şübhə altına alaraq, digər tərəfdaşlara kömək üçün getməyə hazır olduğunu bəyan edir. Və burada sual yaranır: Rusiya necə vasitəçi kimi çıxış edə bilər? Bu, tam aydın deyil. Erməni tərəfinin özünəməxsus yumor hissi var- bu, yalnız özləri üçün gülməlidir".

**Müasir Türkiyənin tədqiqi mərkəzinin direktoru Amur Hacıyev:**

-Ermənistan Türkiyə ilə münasibətlərin normallaşdırılması prosesində vasitəçi kimi çıxış etmək istəyi ilə Rusiyaya üz tutub, çünki əvvəlki təkbaşına bunu etmək cəhdi uğursuz nəticələnib. Bu gün regionda sülh və sabitlik baxımından vəziyyət perspektivli şəkildə inkişaf edir. Burada söhbət iqtisadiyyatın, nəqliyyat sferasının, humanitar dəhlizlərin, arteriyaların yenilənməsindən gedir.

İndi Ermənistanla Türkiyə arasında diplomatik əlaqələrin olmaması, eləcə də Ermənistanla Azərbaycan arasında müəyyən qədər gərginliyin qorunub saxlanması bu gün regionda qeyd olunan tərəqqiyə və müsbət proseslərə mane olur.

Ermənistan niyə Rusiyaya üz tutdu? Ermənistanın 2009-cu ildə Sürix protokolları çərçivəsində birbaşa Türkiyə ilə münasibətləri yaxşılaşdırmaq cəhdini xatırlatmaq yerinə düşərdi ki, bu da uğursuzluqla nəticələndi. Rusiya regionda kifayət qədər konstruktiv və kifayət qədər güclü vasitəçilik mövqeyi tutur. Moskva həm Bakının, həm də İrəvanın etimadını qazanır və Minsk prosesi üzrə digər tərəfdaşlarına nisbətən regionda daha etibarlı oyunçudur. Fransa və ABŞ Ermənistan-Azərbaycan münaqişəsinin həlli kontekstində aşkar səmərəsiz olduqlarını nümayiş etdirdilər. Rusiya Federasiyasının diplomatik səmərəliliyi, bölgəyə ərazi yaxınlığı və Rusiyanın bu regionda konstruktiv və vasitəçi əsasda olması İrəvanın Moskvaya üz tutmasının əsas səbəbidir.

Rusiyanın regiona marağı ondan ibarətdir ki, onun çiçəklənməsi, burada sabitlik və əmin-amanlıq hökm sürür. Təbii ki, çox şey Ermənistan-Türkiyə münasibətlərindən asılı olacaq. Onu da qeyd etmək yerinə düşər ki, Türkiyə daha çox kommunikasiyaların açılmasında və regionda öz maraqlarının təşviqində maraqlıdır. Bütün amilləri nəzərə alaraq, hesab edirəm ki, Rusiya buna baxmayaraq, Ermənistanla Türkiyə arasında münasibətlərin normallaşması prosesində vasitəçi kimi çıxış edəcək.

Bu danışıqların perspektivlərini izləmək olar. Ümid edirəm ki, tərəflər prinsipcə bütün region üçün faydalı olacaq diplomatik təmasların qurulmasına gələcəklər.

Ermənistanın "erməni soyqırımı" mifindən imtina edib-etməyəcəyi çox çətin sualdır. Burada 3 komponent nəzərə alınmalıdır- birbaşa Ermənistan dövlətinin ərazisində yaşayan erməni xalqı, Qarabağdan köçkünlər və ən əsası diaspora. Üstəlik, diasporun özünün vahid olmayan siması və xarakteri var. Türkiyədəki diaspor müəyyən fikirlərə sadiqdir, ABŞ-da, Fransada, Rusiyadakı diasporanın isə məsələlərə və digər maraqlara tamamilə fərqli baxışları var. Ona görə də Ermənistandan danışarkən bütün aspektləri nəzərə almaq və başa düşmək lazımdır ki, biz çoxşaxəli İrəvanla qarşı-qarşıyayıq və bu müxtəlifliyin hansı siması üstünlüyü qazanacaq, ona görə də onun mövqeyi davam edəcək.

Fikrimcə, rəsmi İrəvan qondarma "erməni soyqırımı"ndan əl çəkməyəcək, çünki diaspora tərəfindən daim təzyiqlər hiss edəcək və bu məsələni heç vaxt gündəmdən çıxarmayacaq.

**Türkiyəli beynəlxalq siyasət üzrə ekspert Ferit Temur:**

- İrəvan özü regional səviyyədə imkanlarını ciddi şəkildə məhdudlaşdırıb və Rusiyadan strateji asılı vəziyyətə düşüb. Hamıya məlumdur ki, Ermənistanın Rusiya ilə münasibətləri SSRİ-nin dağılmasından sonra da "peyk" formatında davam edib. Yeni Ermənistanın iqtisadi və hərbi-siyasi aspektdə "müstəqilliyi" kağız üzərində qaldı.

İrəvan özü Türkiyə və Azərbaycanla qarşılıqlı faydalı şərtlər əsasında mehriban qonşuluq münasibətləri qurmaq əvəzinə regional səviyyədə imkanlarını ciddi şəkildə məhdudlaşdırdı və Rusiyadan strateji asılı vəziyyətə düşdü.

Müxtəlif ümumi problemləri müzakirə etmək və onların qeyri-regional oyunçuların müdaxiləsi olmadan həll yollarını tapmaq üçün bütün region ölkələrinin: Rusiya, Gürcüstan, Azərbaycan, Türkiyə və İranın iştirak edəcəyi belə bir regionlararası formatın yaradılması çox faydalı olardı.

Ermənistanın Türkiyəyə qarşı ərazi iddialarına və "erməni soyqırımı" mifinə gəlincə, bu iddialar yalnız əngəllər yarada bilər ki, bunun sayəsində münasibətlərin normallaşması prosesi əngəllənə bilər.

Əgər erməni tərəfinin Türkiyə ilə münasibətləri normallaşdırmaq niyyəti ciddidirsə, o zaman bilməlidir ki, miflər və ərazi iddiaları, ilk növbədə, iqtisadi səbəblərdən Türkiyə ilə münasibətləri normallaşdırmağa çox ehtiyacı olan Ermənistanın özünə heç də istənilən nəticəni verməyəcək.

Ortamüddətli perspektivdə Ermənistanın Türkiyə vasitəsilə NATO bloku ilə mümkün yaxınlaşması riski olmadığı halda Rusiyadan konstruktiv dəstək göstəriləcək.

**Rusiya Elmlər Akademiyasının Beynəlxalq münasibətlər və dünya iqtisadiyyat üzrə Milli Araşdırmalar Mərkəzinin baş elmi işçisi Stas Pritçin:**

-Türkiyə Bakının maraqlarından çıxış edəcək və Ermənistanla münasibətləri normallaşdırmaq üçün istənilən münasibətlər Azərbaycan-Ermənistan danışıqlar prosesi çərçivəsində Ermənistanın öhdəliklərini yerinə yetirməsi ilə əlaqələndiriləcək.

Türkiyə Azərbaycanla tərəfdaşlıq şəraitində fəaliyyət göstərir və yalnız son nəticədə nəqliyyat dəhlizlərini açacaq və Bakının maraqlarına cavab verən siyasət yürüdəcək. Bu səbəbdən Ermənistan Türkiyə ilə münasibətlərdə özünü o qədər də inamlı hiss etmir. Ona görə də Türkiyə ilə münasibətləri daha güclü formatda qurmaq üçün həm vasitəçi, həm də təhlükəsizliyin təminatçısı kimi Rusiyanın dəstəyini alır.

Rusiyanın belə bir tərəfdaş kimi çıxış etməyə nə dərəcədə hazır olduğunu söyləmək hələ də çətindir, çünki Ermənistan, açıq şəkildə gördüyümüz kimi, heç də həmişə öz öhdəliklərini yerinə yetirmir. Ona görə də, Moskvanın bu prosesə qoşulmağa nə dərəcədə hazır olacağı və bütövlükdə regionda münasibətlərin tənzimlənməsi üzrə Rusiya strategiyasına nə dərəcədə uyğun olacağı barədə mühakimə yürütmək çətindir.

Fikrimcə, bir tərəfdən buna heç bir maneə yoxdur, lakin unutmaq olmaz ki, Türkiyə Bakının maraqlarından çıxış edəcək və Ermənistanla münasibətləri normallaşdırmaq cəhdləri İrəvanın müqavilə çərçivəsində öhdəliklərini yerinə yetirməsi ilə əlaqələndiriləcək. Rusiyanın moderatorluğu və sərhədlərin demarkasiyası və delimitasiyası üzrə Azərbaycan-Ermənistan danışıqlar prosesinin çərçivəsində.

Ermənistan üçtərəfli bəyanatdan irəli gələn öhdəlikləri yerinə yetirməyincə, Türkiyənin Ermənistanla sərhədi açmaq üçün addımlarını gözləmək lazım deyil. Ermənistanın Türkiyəyə qarşı ərazi iddiaları məsələsinə toxunsaq, əlbəttə ki, məsələ çətindir. Biz görürük ki, Ermənistan, prinsipcə, Türkiyə ilə münasibətlərin normallaşmasına çox qeyri-müəyyən yanaşır, baxmayaraq ki, bu, iqtisadi baxımdan onun hazırda düşdüyü çətin vəziyyətdən çıxmasına kömək edərdi. Tarixi ideyalara söykənən siyasi münasibət və məqsədlər Ermənistanın həm Azərbaycanla, həm də Türkiyə ilə münasibətlərdə yanaşmasını diktə edir. Ona görə də Ermənistanın öz iqtisadiyyatının praqmatik inkişafı naminə öz baxışlarını nə dərəcədə üstələyə biləcəyini proqnozlaşdırmaq çətindir.




ANALİTİKA

***Tərcümə - Elçin Bayramlı***

# Antirekord: "Yuventus" 63 ildən sonra rüsvay oldu!




**_İtaliyanın "Yuventus" futbol klubu, UEFA Çempionlar Liqasında son 63 ildə ən ağır məğlubiyyətini alıb. Belə ki, Turin təmsilçisi qrup mərhələsinin 5-ci turunda "Çelsi"yə 0:4 hesabı ilə uduzmaqla antirekord müəyyənləşdirib. "Zadəganlara" belə biabırçı hesabla məğlub olan "qoca sinyora" azarkeşlərini üzməklə həm də tarixində yeni xoşagəlməz səhifə açıb._**

"Qoca sinyora" turnirdə son dəfə belə ağır məğlubiyyəti 1958-ci ildə yaşayıb. Çempionlar kuboku adlanan yarışda Avstriya "Viner"i "Yuventus"u 7:0 hesabı ilə darmadağın edib.

# DİQQƏT: Gələn il uşaqpulu veriləcək?




***"2022-ci ilin büdcə xərclərinin 46,4 faizi birbaşa sosial təminat məsələlərinə yönələcək. Gələn il dövlət büdcəsində sosial xərclərin payı 14 milyard manat olacaq". Bu sözləri SİA-ya açıqlamasında deputat, iqtisadçı-ekspert Vüqar Bayramov deyib.***

Onun sözlərinə görə, eyni zamanda 1,5 milyard manatlıq yeni, sosial paket təsdiq olunur və təqdim olunacaq: "1,4 milyard manat əlavə olaraq məhz həmin sosial paketin maliyyələşməsi üçün istifadə olunacaq. Fərqli istiqamətdə ayrılan vəsaitlərin həcmində artımlar proqnozlaşdırılır. O cümlədən minimum əməkhaqqı 250 manatdan 300 manata çatdırılacaq. Ehtiyac meyarı 170 manatdan 200 manata çatdırılır, yaşayış minimumunda artımlar olacaq və biz çox fərqli sosial göstəricilərdə artımların olacağını müşahidə edəcəyik".

Vüqar Bayramov sözlərinə belə davam edib: "Artıq ikinci oxunuşda dövlət büdcəsi lahiyəsi qəbul olunub və bu ondan xəbər verir ki, artıq növbəti ildən bu ayırmalar həyata keçiriləcək. Eyni zamanda, uşaqların dünyaya gəlməsi ilə bağlı, yeni, yeni doğulan uşaqlara ödənişlə bağlı 20 milyon manat vəsaitin ayrılması nəzərdə tutulur. Bu yeni dünyaya gələn uşaqların ailələrinə birbaşa yardım formasında ödəniləcək".

"Nəzərə alsaq ki, gələn il yüz min uşağın dünyaya gəlməsi Azərbaycanda qeydə alınır və gözlənilir ki, 2022-ci ildə orta hesabla yüz min uşaq dünyaya gələcək və həmin ailələrin uşaqları dünyaya gələn ailələrə birdəfəlik 200 manat ödəniş həyata keçiriləcək və bu da təbii ki, bu baxımdan da Dövlət Sosial Müdafiə Fondunun büdcəsində həmin vəsait nəzərdə tutulub. Bütövlükdə sosial təminat, eləcə də ünvanlı sosial yardım məşğulluq proqramı çərçivəsində dəstək alacaq ailələrin də saylarında artımların olacağı gözlənilir".

***Ayşən Vəli***

# Koronavirusun hamilələrə təsiri açıqlandı



***"Orqanizmlər çox müxtəlifdir. Ona görə də orqanizmdən asılı olaraq hər kəsdə xəstəliyin gedişatı eyni olmur. Yəni, həm yüngül, həm də ağır keçirən hamilələrimiz var". Bu sözləri SİA-ya açıqlamasında cərrah, mama-ginekoloq Ləman Əliyeva deyib.***

Onun sözlərinə görə, azacıq qrip və zökəmin əlamətləri ilə halsızlıq, burun axması, oynaqlarda ağrılar, öskürək və s. kimi əlamətlərlə koronavirusu keçirən hamilə qadınlar var: "Amma xəstəliyin son gedişatında halsızlıq və oynaqlarda ağrılar baş verir".

Həkim sözlərinə belə davam edib: "Normal doğuş vaxtı çatanda hamilələr deyir ki, "həkim, mənim doğuş etməyə halım qalmayıb". Onlarda doğuş üçün güc qalmır. Yəni, koronavirus hamilələri gücdən salır".

"Mənim, bu yaxınlarda rastlaşdığım bir xəstəmdə koronavirusun əlamətləri çox yüngül şəkildə, adi qrip əlamətləri kimi özünü büruzə verirdi. Amma uşağı birtərəfli ağciyər pnevmaniyası ilə doğuldu. Yəni, korona olan anada olan koronavirusdan yaranan ağırlaşmasını körpələrdə görə bilərik".

# "İlin qadını" oldu



***Moskvada "Glamour" jurnalının təşkil etdiyi "İlin qadını" mükafatının təqdimetmə mərasimi baş tutub.***

Milli.Az Axşam.az-a istinadən xəbər verir ki, gecənin aparıcıları İvan Urqant, Olqa Şelest və Aleksandr Qudkov olub.

Mərasimdə "İlin qadını" aktrisa Çulpan Xamatova seçilib. O, bu mükafata "Qorbaçyov" tamaşasında və Kirill Serebrennikovun "Qripə tutulan Petrovlar" filmindəki rollarına görə layiq görülüb.

"İlin aktrisası" İrina Starşenbaum, "İlin rejissoru" Kira Kovalenko, "İlin müğənnisi" Rusiyanı "Avroviziya-2021"də təmsil etmiş Manija, "İlin müəllifi" Katerina Qordeyeva, "İlin kişisi" isə Yevgeni Çebatkov olub.

# Yol qəzalarında bir gündə 5 nəfər ölüb



Srağagün respublikanın avtomobil yollarında 5 yol-nəqliyyat hadisəsi baş verib, nəticədə 5 nəfər ölüb, 1 nəfər xəsarət alıb. Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən SİA-ya verilən məlumata görə, respublikanın daxili işlər orqanları tərəfindən srağagün törədilmiş 51 cinayətin üstü "isti izlər"lə açılıb.

Əvvəlki dövrlərdən bağlı qalmış 5 cinayətin açılması təmin olunub. Axtarışda olduğuna görə ümumilikdə 82 nəfər, o cümlədən borclu şəxs qismində axtarışda olan 69 nəfər saxlanılaraq aidiyyəti üzrə təhvil verilib. Daxili işlər orqanları əməkdaşlarının həyata keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində narkotiklərlə əlaqəli 32, qanunsuz saxlanılan silahsursatla bağlı 1 fakt müəyyən edilib. Cinayət törətməkdə şübhəli bilinən 55 nəfər saxlanılıb.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,
Üzeyir Hacıbəyov küçəsi, 66.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90
Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 4600**